14_27 IYUl-QARA.qxd 4/25/2024 10:06 PM Page 1

UNİKAL

№14 (2196) 26 aprel 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru



# Yeni məmur həbsləri gözlənilir



Səh. 5

## Abel Məhərrəmovun adı ətrafında növbəti böyük qalmaqal

*Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, akademik Abel Məhərrəmov məhkəməyə verilib. Bu barədə "qaynarinfo" xəbər verib ki, iddiaçı Əmirov Nazim Fərrux oğlu adlı şəxsdir.*

*Onun iddia tələbi torpaq sahəsinin boşaldılması və qanunsuz tikilinin sökülməsi ilə bağlıdır. Birinci instansiya məhkəməsi iddianı təmin etməyib. Nazim Əmirov apellyasiya şikayəti verib. Şikayətə Sumqayıt Apellyasiya Məhkəməsində baxılır. İş hakim Fuad Məmmədovun icraatındadır. Mayın 7-nə iş üzrə məhkəmə baxış iclası təyin edilib. Nazim Əmirov Abel Məhərrəmovla yanaşı, onun xanımı Rəhimə Mahmudovanı, Tağıyev İlqar Nizami oğlunu və Tağıyev Nizami Haqverdi oğlunu da məhkəməyə verib.*

Səh. 7

## "Dörd kəndimizin danışıqlar yolu ilə qaytarılması tarixi hadisədir"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasından, Azərbaycanla Ermənistan arasında ilk sərhəd dirəyinin quraşdırılmasından, sülh müqaviləsinin nə vaxt imzalana biləcəyindən və Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən danışıb.*

Səh. 4

## "Azərbaycanla hədə dili ilə danışmaq olmaz"



*ABŞ Dövlət Departamentinin "2023-cü il İnsan Hüquqları Təcrübələri" üzrə dünya ölkələrində insan hüquqlarına dair illik hesabatı yayılıb. Hesabatda Azərbaycana qarşı çox ciddi tənqid və qərəzli iradlar öz əksini tapıb. Bununla bağlı fikirlərini "Unikal"a bildirən...*

Səh. 9

## Emin Əmrullayevin qəbulu tənqid hədəfində...



*Bir neçə il əvvəl ölkə başçısı keçirdiyi müşavirədə məmurlara tapşırıq vermişdi ki, onlar daimi olaraq regionlarda vətəndaşları qəbul edib dinləsinlər. Həmin vaxtdan etibarən hər ay müxtəlif qurumların rəhbərləri bölgələrdə vətəndaş qəbulu həyata keçirirlər.*

Səh. 8

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:13 PM Page 2



# Firuzə İbadova Cavanşir Məmmədova görə səhnədan gedir? - Açıqlama



***Əməkdar artist Firuzə İbadova duet ortağı, Əməkdar artist Cavanşir Məmmədovun ölümündən sonra səhnəni tərk etməsi haqda yayılan xəbərlərə münasibət bildirib.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi sosial şəbəkədə paylaşım edərək xəbərin təhrif olunduğunu bildirib: "Firuzə İbadova Cavanşir Məmmədov üçün səhnəyə əlvida dedi" haqda xəbər doğru deyil. Mən Cavanşir Məmmədovdan sonra səhnəni heç kimlə paylaşa bilmərəm, mən duet oxumağa əlvida demişəm, səhnəyə deyil. Mən sənətimi, səhnəni sevirəm və heç vaxt tərk edə bilmərəm! Əksinə onun ruhu şad olsun deyə, nəğmələrimizi yaşadacağam! Çox xahiş edirəm, yanlış məlumat paylaşmayın".

# "Onlar öz çirkinliklərində batacaqlar" - Oksana Rəsulova



***"İnsan itirdikcə qazanır... Mən qazandım. Allaha min şükür olsun. Hər zaman dayağınız Allah olsun, dostlar, o hər şeyi bilir və görür, etibar edin ona... Ümüdünizi ondan üzməyin!".***

Bu sözləri rəqqasə-aktrisa Oksana Rəsulova sosial şəbəkədə yazıb.

"Allahın adını pis əməllərə görə istifadə edənlərdən, onun adı ilə yalandan and içənlərdən, onu dilində və əməllərində qiymətləndirməyən insanlardan uzağ olun. Hər bir saf, təmiz günümüzə şükürlər olsun. Heç vaxt icazə verməyin nə gününüzü, nə də qəlbinizi ləkələsinlər... Onsuz da onlar öz çirkinliklərində batacaqlar və heç vaxt oradan çıxmayacaqlar, çünki belə insanlar üçün iman, ailə, mənəvi və ruhani dəyər yoxdur. Yalandan Allahın adını çəkən insanlar heç vaxt nə xoşbəxtlik, nə sağlamlıq, nə də ki, hörmət tapacaqlar!" deyə, Oksana qeyd edib.



# "Murada dedi ki, aktrisadı, boşa onu getsin" - Ülviyyə Xəlilbəyli

***Aktrisa və aparıcı Ülviyyə Xəlilbəyli maraqlı açıqlamalar verib.***

O, şəxsi həyatı barədə danışıb. Həyat yoldaşı ilə ailədaxili münasibətdə yaşadığı çətinliklərdən danışan aktrisa psixoloqa müraciət etdiklərini bildirib.

Onun məsləhətindən şok düşən Ülviyyə bu barədə Xəbərin var?" verilişində danışıb. Aktrisa məşhur psixoloqun onlara boşanmağı məsləhət gördüyünü deyib.

# Səidə: "Yenə də lüt olacaq"

***Müğənni Səidə Sultanın növbəti paylaşımı diqqət çəkib.***



İfaçı instaqram hesabında videosunu yayımlayaraq bunları yazıb:

"İnsan hər yerdə eyni adamdır. Əgər insanın yaradılışında nəciblik yoxdursa, kainatın tacını geyinsə də, yenə də lüt olacaq".

# "Dəli olmağıma bir addım qalıb" - Xumar Qədimova



***Əməkdar artist Xumar Qədimova sosial media hesabında paylaşdığı videosu ilə diqqət çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, ifaçı görüntüdə bunları söyləyib: "Dəli olmağıma bir addım qalır. Mən, deyəsən, elə doğum günümdə dəli olacam. Bir yerdə dəli olaqmı? Gəlin, bir yerdə dəli olaq. Sizi sevirəm".

O, paylaşımına isə "Bir addım qalıb..." qısa şərhini yazıb.

# "Nişanlım dünyasını dəyişib" - Şəbnəm Tapdıq

***"Nişanlım da olub, istədiyim, sevdiyim bir şəxs də... Amma həmin şəxs biz ailə qurmadan dünyasını dəyişib. Onun yerinə isə heç kimi qoya bilmərəm. O, tamamilə fərqli bir insan idi. Yarı alman idi, ürəyi götürmədi ki, mən niyə mahnı oxumağa çıxmışam".***



"Unikal" lent.az-a istinadən bildirir ki, bu fikirləri qatıldığı proqramlardan birində Şəbnəm Tapdıq səsləndirib.

"Qısqanc adam idi. Kişilər qısqanc olurlar. Bu qısqanclığın əsas məsələsi "Niyə mənə başqa insanlar baxmalıdır?" düşüncəsidir. Mənə milyon göz baxsa da, xasiyyətim elədir ki, heç kim mənə söz deyə bilməz. Çox ciddi xanımam",- deyə o bildirib.



## Penitensiar xidmətin rəisi Türkiyədə beynəlxalq tədbirdə iştirak etdi

***Aprelin 21-dən 23-dək Türkiyə Respublikasının Ədliyyə Nazirliyinin ev sahibliyi ilə “Cəzaçəkmə müəssisələrində texnologiya” mövzusunda konfrans keçirilib.***

Ədliyyə Nazirliyinin Penitensiar xidmətin mətbuat xidmətindən ”Unikal”a verilən məlumata görə, konfrans Beynəlxalq İslah və Həbsxanalar Assosiasiyası (ICPA) ilə Avropa Həbsxana və İslah Xidmətləri Təşkilatı (EuroPris) tərəfindən birgə təşkil olunub.

Bir sıra ölkələrin ədliyyə orqanlarının, həbsxana və probasiya xidmətləri üzrə rəhbər şəxslərin, beynəlxalq təşkilat nümayəndələrinin, cəza-icra siyasəti üzrə mütəxəssislərin, akademik və elmi tədqiqatçıların iştirak etdikləri tədbirdə Azərbaycanı ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Panel iclas və paralel işçi sessiyalar şəklində davam edən tədbirdə smart texnologiyaların həbsxanalara inteqrasiyası, məhkumların və həbsxanaların müasir texnologiyalarla və süni intellektlə idarə edilməsi, rəqəmsal reabilitasiya, ağıllı həbsxana mövzularında müxtəlif ölkələrin təcrübələri barədə çıxışlar dinlənilib və məlumatlar verilib.

Tədbirdə müxtəlif ölkələrin və şirkətlərin cəza-icra prosesində tətbiq etdikləri texnoloji vasitələr və yeniliklər əks etdirən stendlərdən ibarət geniş sərgi keçirilib.

Səfər çərçivəsində Türkiyə Cəza və Həbs Evləri Baş İdarəsinin rəisi Enis Yavuz Yıldırım ilə ikitərəfli görüş keçirilib. Görüş çərçivəsində ədliyyə, xüsusilə penitensiar xidmət sahəsində əməkdaşlıq müzakirə olunub, müsbət təcrübə bölgüsü həyata keçirilib, ələqələrimizin inkişafında dövlət başçılarının xüsusi rolu vurğulanıb.

Konfransın proqramına uyğun olaraq nümayəndə heyəti yeniyetmələr üçün Maltəpə qapalı həbsxanasında olub.

Eyni zamanda, açıq tipli Maltəpə həbsxanasına baş çəkib. Müəssisələrin quruluşu, infrastrukturu, təhlükəsizlik sistemləri, istehsalat sahələri, məhkumların saxlanma şəraiti, islah prosesi, təhsili və əl işləri ilə tanış olub.

# Emin Əmrullayevin qəbulu tənqid hədəfində...

## Həftənin sualı: bəzi iri məmurlar vətəndaşlarla görüntü xatirinə görüşür?

***Bir neçə il əvvəl ölkə başçısı keçirdiyi müşavirədə məmurlara tapşırıq vermişdi ki, onlar daimi olaraq regionlarda vətəndaşları qəbul edib dinləsinlər. Həmin vaxtdan etibarən hər ay müxtəlif qurumların rəhbərləri bölgələrdə vətəndaş qəbulu həyata keçirirlər. Məmurlar bu vətəndaş qəbullarını səmərəli hesab etsələr də, bir sıra vətəndaşlar bəzi yüksək vəzifəli şəxslərin kerçirdiyi qəbullarla bağlı eyni fikirdə deyillər. Onların dediklərindən belə çıxır ki, müəyyən məmurlar üçün vətəndaşlarla görüş daha çox formal xarakter daşıyır.***

Bu günlərdə Kamil Qasımov adlı vətəndaşın KİV-də yer alan şikayəti də sözügedən qəbildən olub.

“Ötən aydan deyirdilər ki, nazir bu tərəflərə gələcək, vətəndaşları qəbul edəcək. Mən də fürsəti əldən verməyib, qəbuluna yazılmaq üçün bir ay qabaqdan Elm və Təhsil Nazirliyinə müraciət etdim. Mənə həm yazılı, həm də şifahi bildirildi ki, müraciətim qeydə alınıb, qəbul üçün növbə siyahısında 40-cı vətəndaşam. Qəbul günü çatdı, nazir gəldi, ancaq baxdım ki, adım siyahıda sürüşüb 82-yə gedib çıxıb. Hamını birinci mərtəbədəki havasız bir otağa yığdılar, nazirsə ikinci mərtəbədə qəbul edəcəkdi. Saat 10-da qəbul başladı. Adamları bir-bir otaqdan çıxarıb, qəbul otağına yola salırdılar. Günortaya yaxın qapıları açıb necə deyərlər, bizi “azad etdilər”, qəbul otağına yola saldılar, otağa daxil olanda gördük ki, nazir yoxdur, dedilər, biz sektor müdirləriyik, nə sözünüz varsa, bizə deyin” - vətəndaş bildirib.

Onun sözlərinə görə, məhz bu səbəbdən də qəbula girməkdən imtina edib.

Bəs K.Qasımov nazirlə niyə görüşmək istəyirdi? Nazirə hansı sözü var idi? Vətəndaşın sözlərinə görə, illərdir ki, övladlarının təhsil aldığı 32 saylı orta məktəbdə bilgisayar və idman fənləri keçirilmir. Buna görə illərdir ki, valideynlər həm Gəncə Təhsil İdarəsinə, həm də Elm və Təhsil Nazirliyinə müraciət edir. Ancaq hələ də məktəbdə nə idman zalı, nə də bilgisayar otağı qurulub: “Övladımın biri dördüncü, digəri altıncı sinif şagirdidir. İdman zalı olmadığına görə hər il qış aylarında idman fənnini çöldə keçirlər. 21-ci əsrdə uşaqların kompüterdən anlayışı sıfırın altındadır. Məktəbdə kompüter dərsləri də keçirilmir, çünki kompüter otağı yoxdur. Nazirə bunları deyəcəkdim, bir valideyn olaraq xahiş edəcəkdim ki, heç olmasa növbəti təhsil ilində uşaqlar məktəbə gedəndə orada idman zalı, kompüter otağı olsun”.



Şikayətçinin sözlərinə görə, məktəbdə idman zalının və kompüter otağının yaradılması üçün uzun müddətdir ki, həm Gəncə Şəhər Təhsil İdarəsinə, həm də Elm və Təhsil Nazirliyinə müraciət edib. Vətəndaş hesab edir ki, tədris olunmayan hər iki fənn məktəblilər üçün vacibdir: “Başqa ölkələrdə fəaliyyət göstərən təhsil müəssisələrində uşaqların sağlamlığı önə çəkilir, ən çox da bu fənnə diqqət yetirilir, hətta ən çox dərs saatı idmana və əmək dərslərinə ayrılır. Bizdə isə idman, əmək, kompüter dərslərinə lazımsız bir şey kimi yanaşılır”.

Kamil Qasımov nazirdən həm də məktəbin ərazisindəki qoca ağacın kəsilməsini xahiş edəcəkmiş. Belə ki, valideynlər və məktəb rəhbərliyi məktəblilər üçün həyati təhlükəyə çevrilmiş qoca ağacın kəsilməsi üçün uzun müddətdir ki, aidiyyəti qurumlara müraciət edirlər, ancaq nəticəsiz qalır.

Gəncə - Daşkəsən Regional Təhsil İdarəsindən isə sözügedən mövzu ilə bağlı mediaya bildirilib ki, aprelin 19-da Elm və Təhsil naziri Emin Əmrullayev Samux rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda Samux, Gəncə, Naftalan, Göygöl, Daşkəsən, Goranboy və Kəlbəcər sakinləri iştirak ediblər. Qəbul zamanı vətəndaşlar müəllimlərin işə qəbulu, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər. Elm və Təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlarla görüşdə nazirliyin başqa vəzifəli şəxsləri də olublar və vətəndaşları dinləyiblər.

Məmur qəbulları ilə bağlı mütəmadi səsləndirilən şikayətlər isə bu görüşlərlə bağlı hər şeyin heç də rəsmi məlumatlarda göstərildiyi kimi olmadığına dair təəssürat yaradır.

Yeri gəlmişkən, “Orada insanlar dərdlərini deyirlər. Sonra mətbuata eyni məzmunlu məlumat yayırlar ki, bütün şikayət dinlənildi, müraciətlərə baxıldı, yaxud aidiyyəti üzrə göndərildi. Əslində, Azərbaycanda ”Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” 10 iyun 1997-ci il tarixli qanun var. Həmin qanunun tələblərinə görə, müraciətlərə dəqiq, dürüst baxılmalıdır. Müraciətlərə baxılması qaydalarından biri isə vətəndaşların qəbuludur. Qəbul zamanı qaldırılan problem əgər həmin vəzifəli şəxsin səlahiyyətindədirsə, dərhal yerində həll olunmalıdır. Yox, səlahiyyətində deyilsə, həmin müraciət 5 gün müddətində aidiyyəti üzrə digər orqanlara göndərilməlidir. Həmin orqan müraciətin icrasını təmin etməlidir. Lakin bir sıra ekspertlərin, hətta zaman-zaman bəzi deputatların da dilə gətirdiyi kimi ölkəmizdə bunlar bəzi hallarda formal xarakter daşıyır. Məsələn, deputat Naqif Həmzəyev 2020-ci ildə Milli Məclisdə demişdi: “Dövlət başçısı konkret tələb qoyub ki, hər bir məmur xalqın yanında olmalıdır, vətəndaşların istək və arzularını yerinə yetirməlidir. Yəni, vətəndaş qəbul üçün hansısa günü gözləməməlidir... Görüntü xatirinə vətəndaş qəbulları keçirmək lazım deyil”.

Bir vacib məqamı vurğulamaqda da fayda var: bəlkə də, bir sıra məmurların vətəndaşlarla görüşlərinin formal xarakter daşımasına görədir ki, müəyyən sahələrdə vəzifəli şəxslərdən, onların fəaliyyətindən narazı insanların, şikayətçilərin sayı azalmaq bilmir ki, bilmir. Halbuki bəzi iri məmurların qəbulları formal xarakter daşımasa, əhalinin şikayətlərində, narazılıqlarında da ciddi səngimə müşayiət olunardı...

***Toğrul Əliyev***

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:19 PM Page 4





# “Azərbaycanla hədə dili ilə danışmaq olmaz”

## Əli Orucov: “Maraqlısı odur ki, Azərbaycana qarşı sanksiyalar ölkənin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən, regional güc mərkəzinə çevrildikdən sonra gündəmə gətirilir”

***ABŞ Dövlət Departamentinin “2023-cü il İnsan Hüquqları Təcrübələri” üzrə dünya ölkələrində insan hüquqlarına dair illik hesabatı yayılıb. Hesabatda Azərbaycana qarşı çox ciddi tənqid və qərəzli iradlar öz əksini tapıb. Bununla bağlı fikirlərini “Unikal”a bildirən AMİP funksioneri, politoloq Əli Orucov deyib ki, ABŞ Dövlət Departamentinin illik hesabatlarında həmişə, ənənəvi olaraq Azərbaycanla bağlı tənqidi fikirlər və mənfi çalarlar öz əksini tapır.***

Onun sözlərinə görə, hesabatlarda göstərilən xüsusatlar bir çox hallarda subyektiv olur və Birləşmiş Ştatların milli maraqlarına uyğunlaşdırılır: “Vaşinqtonun hansı dövlətlərlə problemi varsa, hansı dövlətlər Ağ Evin təlimatlarına uyğun olmadan siyasət yürüdürsə, həmin dövlətlər də hədəfə götürülür. Mən sözügedən hesabatla tanış olmuşam və heç də orda göstərilənlər reallığı əks etdirmir. Xüsusən də, keçmiş Dağlıq Qarabağla və hökumətin qeydə aldığı qurumlardan kənarda ibadət edən çoxlu sayda şiə müsəlmanları İranla əlaqədə olduqları iddiası ilə həbs edilməsi barədə yazılanlar qəbuledilməzdir. Əvvəla, ona görə ki, ötən ilin sentyabrın 19-20-də Azərbaycan keçmiş Dağlıq Qarabağa tam nəzarəti ələ keçirmək üçün hərbi əməliyyat keçirməyib. Bu qısamüddətli hərb əməliyyat orda gizlənmiş və Azərbaycan dövlətinə qarşı ciddi və real təhlükə yaradan, xüsusən də Rusiyadan hərbi yardım alan terrorçu birləşmələrə qarşı anti-terror əməliyyatı keçirilib. Bu, suveren bir dövlət olaraq Azərbaycanın beynəlxalq hüquqla təsbit edilən doğal haqqıdır. Terrorizm və separatizm çağdaş dünyamızı real təhdid edən problemdir və dünya bu qorxunc gücə qarşı səylərini birləşdirmək məcburiyyətindədir. Rəsmi Bakının terrora qarşı mübarizəsini dəstəkləmək lazımdır. Yeri gəlmişkən onu da vurğulayım ki, ABŞ-ın təşəbbüsü ilə yaradılan antiterror koalisiyasında da Azərbaycan fəal iştirak edir. İkncisi, Bakının Qarabağ iqtisadi rayonunda məskunlaşmış ermənilərə reinteqrasiya və yüksək təhlükəsizlik təkliflər verməsinə baxmayaraq onlar könüllü surətdə kütləvi köçü seçdilər. Köç edən ermənilərə də hər hansı bir problem yaradılmadı. Hesab edirəm ki, bu həqiqətləri Birləşmiş Ştatlar çox yaxşı bilir, lakin siyasi maraqlar imkan vermir ki, obyektiv yanaşma sərgiləsinlər. Ən əsası isə hesabatı hazırlayanlar bilməli idilər ki, Azərbaycanda Dağlıq Qarabağ adlı inzibati ərazi vahidi yoxdur. Azərbaycanda dini etiqad azadlığının qorunması, müxtəlif dinlərə məxsus insanların öz dini inanclarını, ayin və ibadətlərini icra etməsində heç bir problem olmayıb. Azərbaycandakı dini tolerantlıq həmişə nümunə göstərilib. Coxlu sayda şiə müsəlmanlar İranla əlaqədə olduqları iddiası ilə həbs edilməsi tamamilə cəfəngiyyatdır. Heç kəsə sirr deyil ki, İran din pərdəsi altında təkcə Azərbaycanda deyil, bütün dünyada casus şəbəkəsi yaratmaqla dövlətlərin işinə müdaxilə etməyə çalışır. Xüsusən də Azərbaycan İranın xüsusi xidmət orqanlarının geniş fəaliyyət göstərdiyi məkana çevrilmişdir. İnanclı insanların da öz çirkin niyyətlərini həyata keçirmək üçün sui-istifadə edirdi. Hər il Məşhədə, Qum, Kərbala və digər yerlərə zəvvarlar və turlar təşkil edərək sadəlövh insanları İran keşfiyyatı öz toruna salırdı. Təəssüf ki, indi də həmin tendensiyalar davam etdirilməkdədir. ABŞ anlamalıdır ki, İran xüsusi xidmət orqanlarının və bütövlükdə İran rejiminin din pərdəsi altında Azərbaycandakı fəaliyyəti onun da maraqlarına ciddi zərbə vurur. İranın İraqda, Suriyada, Livanda, Fələstində, Yəməndə və s. ölkələrdə mövcudluğu və rolu nə qədər dağıdıcı, faciəvi olması haqda ortada onlarla faktlar, nümunələr olduğu halda Azərbaycanın belə bir təhlükəni önləməsi istiqamətində atdığı adımları ABŞ Dövlət Departamentinin bunu güya şiə müsəlmanların İranla əlaqədə olduqları iddiası ilə həbs edilməsi kimi hesabatında təqdim etməsi heyrət doğurur. Hesab edirəm ki, dövlətin təhlükəsizliyinə və varlığına təhdid yarada biləcək nə varsa vaxtında qarşısı alınmalı, yaxud zərərsizləşdirilməlidir”.



Qeyd edək ki, hesabatda işgəncə və digər fiziki zorakılıqlar, siyasi məhbuslar və müstəqil məhkəmə sisteminin olmaması da daxil olmaqla, insan hüquqlarının pozulması, siyasi partiyaların qeydiyyatı və fəaliyyəti ilə bağlı məqamlar yer alıb. Ə.Orucov deyib ki, hesabatda sadalanan hallarla bağlı problemlər və narahatlıqların olmasını bütövlükdə inkar etməzdim. Amma etiraf olunmalıdır ki, müyyən islahatların və işlərin görülməsinə baxmayaraq fiziki zorakılıq halları, habelə məhkəmə-hüquq sistemində qüsurlar qalır. Onun fikrincə, siyasi partiyaların fəaliyyəti, seçki sistemi kimi vacib məsələlər hələ də öz müsbət həllini tapmayıb: “Ancaq bu problemlərin aradan qaldırılması təkcə hökumətlə bağlı deyil. Cəmiyyətin özü də gərək maraq göstərsin, hökumətin tətbiq etdiyi qadağalara, məhdudiyyətlərə ciddi müqavimət göstərsin. Və məcbur etsin ki, dövlət də, hökümət də xalqa xidmət göstərsin, onun maraq və mənafelərinə uyğun fəaliyyətini qursun, qanunvericilik və icra mexanizmi yaratsın. Dövlət yox, xalq dövlətə diqtə etsin. Baxın, Azərbaycan Konstitusiyasının 1-ci maddəsində yazılıb ki, dövlət hakimiyyətinin mənbəyi xalqdır. Yenə həmin Konstitusiyanın 7-ci maddısində Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyəvi, unitar respublika olması təsbit edilib. Yaxşı o zaman nədən Azərbaycan bir sıra hesabatlarda tənqid hədəfinə götürülür, sonuncu yerlərdə qərarlaşır?! Biz bunları təkcə qərəzə, qeyri-obyektivliyə, inkarçılığa bağlaya bilmərik. Doğrudur bu faktorlar da var. Elə məsələlər var ki, həlli xeyli zaman tələb edir, yaxud yerləşdiyimiz coğrafi məkana və digər şətrlərə bağlı olaraq üzərindən keçmək zərurəti yaranır. Ancaq fundamental hüquqlarla, demokratik dəyərlərlə, idarəetmə ilə bağlı problemləri çözmək mümkün və labüddür. Siyasi iradə və xalqın ciddi marağı və tələbi olsa ölkədə siyasi partiyaların və plüralizmin inkişafına, siyasi hakimiyyətin, idarəetmənin səmərəliliyinə, hakimiyyət qolları arasında bölgünün funksionallığına, elementar hüquqların qorunmasına nail olmaq mümkündür. Bu faktorlar Azərbaycan dövlətinin daha da güclənməsinə, beynəlxalq imicinin və nüfuzunun yüksəlməsinə, ən əsası davamlı sabitliyin əldə edilməsi də çox vacibdir. Ümid edirəm ki, yaxın dönəmlərdə həm biz, həm də dünya ictimaiyyəti mütərəqqi irəliləyişlərin şahidi olacaq və hansısa hesabatlarda haqlı-haqsız hədəfə çevrilməyəcəyik”.

ABŞ Konqresinə Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qanun layihəsi təqdim ediləcəyi ilə bağlı məsələyə gəlincə, müsahibimiz deyib ki, sanksiya hədəsi təkcə okeanın o tayından edilmir, Qərbdən də belə bir hədə səsləndirilir. Onun fikrincə, bütün bunlar ədalətsiz və haqsız addımdır: “Maraqlısı odur ki, Azərbaycana qarşı sanksiyalar ölkənin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən, regional güc mərkəzinə çevrildikdən sonra gündəmə gətirilir. Bir yandan bəyan edilir ki, ABŞ və müttəfiqləri Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi təşviq və dəstəkləyir, lakin əməldə biz bunun tamam əksinin şahidi oluruq. Regionda normallaşmaya, əməkdaşlığa və iqtisadi-ticari, kommunikasiya əlaqələrinin inkişafına çalışan Azərbaycana qarşı birtərəfli neqativ mövqe anlaşılan deyil. ABŞ bilərəkdən Azərbaycanı İran, Rusiya kimi təhlükəli avtoritar rejimlərin əhatəsində və tədric olunmuş vəziyyətə salmaqla, həm də özünün çıxarlarına problem yaradır. Belə vəziyyətdə rəsmi Bakıdan demokratik inkişaf, fundamental islahatlar, təhlükəsizlik və yaxud strateji məsələlər barədə nəsə tələb etmək yersiz olar. Çünki qaynar çəmbərdə təhlükəsiz zona kimi uzun müddət qalmaq olduqca çətindir. Xüsusən də, Ermənistan-Azərbaycan arasında normallaşma və sülh prosesi istiqamətində kövrək addımların atıldığı, İranın və Rusiyanın hərbi ritorikaya və hədə üslubuna üstünlük verdiyi məqamda Azərbaycanın beynəlxalq mütərəqqi qüvvələrin dəstəyinə zərurət yarandığı indiki vaxtda, Azərbaycan əməkdaşlığa və tərəfdaşlığa ,habelə qarşılıqlı maraqların təmin edilməsinə həmişə hazır olduğunu, eyni zamanda etibarlı partniyorluğunu həmişə nümyiş etdirib. Azərbaycanla da hədə, yaxud sanskiya dili ilə danışmaq, anlaşılmazlıqları aradan qaldırmağı perspektivli hesab etmirəm. Qərbin Azərbaycana, Azərbaycanın da Qərbə həmişəkindən daha çox ehtiyacı var”.

***M.İbrahimli***

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:20 PM Page 5



# İlham Əliyev Avropa İttifaqına irad tutdu

## Prezident: "...əlavə qaz istəyir, zəmanət vermir"

***"Bakı dünyanın ən çirklənmiş şəhərlərinin birinə çevrilmişdi. Bizdə neft gölləri, neft sızıntıları var idi. Biz ekoloji fəlakət olan bu dəhşətli mirası təmizləmək üçün yüz milyonlarla, hətta milyardlarla dollar xərcləmək məcburiyyətində qalmışdıq. İndi Bakıda gördüklərinizin 10 il, 20 il bundan əvvəl hansı vəziyyətdə olduğunu heç təsəvvürünüzə belə gətirə bilməzsiniz".***



Bunu Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" adlı beynəlxalq forumda İsveçrənin Cenevrə Universitetində Qlobal Ətraf Mühit Siyasəti Proqramının direktoru Aleksandr Hecazinin sualını cavablandırarkən deyib.

İlham Əliyev deyib ki, bu gün Azərbaycan sabit neft və artan qaz hasilatına malik olmaqla yanaşı, eyni zamanda, yaşıl enerji layihələrini inkişaf etdirir: "Bununla əlaqədar bir vacib məsələ Avropada qazıntı yanacağı ilə bağlı qoyulmuş məhdudiyyətlərdir. Biz burada bir ziddiyyət görürük və biz bu məsələni artıq avropalı tərəfdaşlarımız qarşısında qaldırmışıq. Bir tərəfdən Avropa, Avropa İttifaqı Azərbaycandan əlavə qaz istəyir - bu məqsədlə təqribən iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq üzrə bəyannamə imzalanmışdır. Bu sənədə əsasən bizim Avropaya qaz təchizatımız 2021-ci ildə 8 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrə qədər artmalıdır. Bu, bir öhdəlik deyil, bu, bir hədəfdir. Biz bu hədəfə doğru gedirik. Bu il Avropaya qaz təchizatımız təqribən 12 milyard kubmetr olacaq. Bu, 2021-ci illə müqayisədə 4 milyard kubmetr çoxdur. Beləliklə, biz daha çox investisiya qoymalı idik, daha çox qaz hasil etməli idik, lakin qazıntı yanacağı layihələri maliyyələşdirmək üçün maliyyə institutları ilə bağlı məhdudiyyət var. Məsələn, Avropa İnvestisiya Bankı bu məsələni tamamilə portfelindən çıxarmışdır. Avropa Yenidənqurma və İnkişaf Bankı qazıntı yanacağı layihələri üçün kiçik bir vəsait ayırıb. Beləliklə, Avropa Azərbaycandan necə əlavə qaz əldə etmək istəyir ki, heç maliyyələşməni də təmin etmir. Çünki belə bir layihə üçün neft və ya qaz boru kəmərlərinin olub-olmamasından asılı olmayaraq, bizim icra etdiyimiz bütün layihələrdə korporativ maliyyələşmə 30 faiz səviyyəsindədir. Qalan hissə borca götürülmüş vəsaitdir".

Prezident deyib ki, Avropa Azərbaycandan daha çox hasil etməyi və daha çox təchiz etməyi istəyir, amma zəmanət vermir: "Yeri gəlmişkən, Avropa, Avropada interkonnektorların tikintisi layihələrini də icra edir. Lakin, eyni zamanda, bizə heç bir zəmanət vermir ki, bizim qazımıza uzun müddət ərzində tələbat olacaq. Beləliklə, biz yalnız 5-10 il üçün milyardlarla investisiya yatırıb sonra xərclərimizi geri qaytarmaya bilmərik. Cənub Qaz Dəhlizi və "Şahdəniz" layihəsinin 2-ci mərhələsinə yatırılmış investisiyalar bu gün hələ də sıfır balansına çatmayıb. Biz hələ də borcu geri ödəyirik. Qaz satışından əldə etdiyimiz vəsaiti borcun ödənilməsinə sərf edirik. Beləliklə, bunlar Avropa ilə Azərbaycan arasında qaz əməkdaşlığına dair bizim həll etməli olduğumuz iki ən önəmli məsələdir".

# Naxçıvanın Baş naziri işdən çıxarıldı - Yeni təyinat

***Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov vəzifəsindən azad olunub.***

Bu barədə müvafiq qərar qəbul edilib. Məlumata görə, Azərbaycan Prezidentinin təqdimatı və Ali Məclisin qərarı ilə muxtar respublikanın yeni Baş naziri Ceyhun Cəlilov olub.

"Unikal" Ceyhun Ramiz oğlu Cəlilovun dosyesini təqdim edir: "Ceyhun Cəlilov 1987-ci ildə Şahbuz rayonunda anadan olub. 2000-2005-ci illərdə Naxçıvan Türk liseyində təhsil alıb. O, 2005-ci ildə Dövlət İqtisad Universitetinə qəbul olub. 2010-12-ci illərdə Dövlət İqtisad Universitetində magistr təhsili aldıqdan sonra "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyaya gedib. 2012-13-cü illərdə sözügedən layihə çərçivəsində Böyük Britaniyanın Esseks Universitetində magistr təhsili alıb. Ceyhun Cəlilov əmək fəaliyyətinə 2011-ci ildə İqtisadi İnkişaf Nazirliyində baş məsləhətçi kimi başlayıb. Bir il sonra - 2012-ci ildə BP şirkətində çalışmağa başlayıb. Ceyhun Cəlilov 2021-ci ilə kimi BP-də müxtəlif vəzifələrdə işləyib. 2021-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində çalışıb.



2021-ci ilin avqust ayından etibarən DOST Agentliyində sədrin müşaviri vəzifəsini tutub. 2023-cü ilin martında isə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təyin olunub".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050056447001109944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Şadam ki, bu il Azərbaycan COP29-un ev sahibidir - Berbok

***Mən şadam ki, bu il Azərbaycan COP29-un ev sahibidir.***

"Unikal" xəbər verir ki, bunu Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycanın energetika naziri, COP29-un prezidenti Muxtar Babayevlə bu gün Berlində keçirilən 15-ci Petersberq İqlim Dialoqunun nəticələrinə dair brifinqdə deyib.

"Azərbaycan bununla iqlimin mühahizəsi ilə bağlı üzərinə vacib öhdəlik götürüb. Siz bizim dəstəyimizə arxayın ola bilərsiniz. Üçlüklə, yəni BƏƏ, Braziliya və Azərbaycandan olan COP sədrləri ilə iqlim naminə Dubaydan, Berlindən Bakıya aparan körpünün üzərində birgə işləyək. Ümid edirəm ki, bu körpü Azərbaycan və Ermənistan arasında sülhə xidmət edəcək. Əməkdaşlığımıza şadam". Qeyd edək ki, COP29 konfransının Azərbaycanda keçirilməsi barədə qərar rəsmi olaraq 11 dekabr 2023-cü ildə Dubayda elan edilib. Azərbaycan bu ilin noyabrında tədbirə ev sahibliyi edəcək.

# Prezidentin təyyarəsi Füzulidən Berlinə yola düşdü



***Azərbaycan Prezidentinin təyyarəsi Füzuli Hava Limanından ilk dəfə olaraq Berlinə uçub.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında paylaşım edib.

"Unudulmaz və tarixi uçuş: Füzulidən Berlinə! Möcüzələr inandığınız zaman baş verir!" - deyə Hacıyev qeyd edib.

# Azərbaycan-Ermənistan sərhədində 20 sərhəd dirəyi quraşdırılıb

***Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında 2024-cü il aprelin 25-dək 20 sərhəd dirəyi quraşdırılıb. İki dövlətin ekspert qruplarının işi davam edir.***



"Unikal" xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Xidməti məlumat yayıb.

"Xəbər verildiyi kimi, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Ermənistan Respublikası Komissiyasının 8-ci görüşünün yekunlarına əsasən əldə edilmiş razılaşmalara müvafiq olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası sərhədində iki ölkənin ekspert qrupları ərazidə geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi prosesinə başlayıblar".

# Sadır Japarovun Azərbaycana səfəri başa çatdı



***Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri aprelin 25-də başa çatıb.***

"Unikal" xəbər verir ki, hər iki ölkənin Dövlət Bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident Sadır Japarovu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər yola salıblar.

# Azərbaycanda yeni nazir əvəzi təyin edildi

***Fərid Bağırzadə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilib.***

"Unikal" xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov aprelin 25-də Fərid Bağırzadənin Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası da Fərid Bağırzadəyə həvalə edilib. Fərid Bağırzadə bu təyinatadək Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri idi.

Qeyd edək ki, Naxçıvanın əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov bu gün muxtar respublikanın baş naziri təyin edilib.

# İlham Əliyev Sadır Japarovla Ağdam və Füzulidə...

***Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində olublar.***

”Unikal” xəbər verir ki, dövlət başçılarına şəhərin Baş planı barədə məlumat verilib. Bildirildi ki, bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çevirib, şəhəri yerlə-yeksan ediblər. Buna görə Ağdamı “Qafqazın Xirosiması” adlandırırlar.

Məlumat verildi ki, Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə “Agdam City Hotel” və “Hilton Garden Inn” layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək. Həmçinin qeyd olundu ki, şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq. Bildirildi ki, şəhərdə salınacaq Mərkəzi park üçün 5 hektar ərazi ayrılıb. Parkın ərazisi 4 zonaya bölünüb və insanların asudə vaxtlarının səmərəli keçirmələri üçün lazımi şərait yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər.

Prezidentlət Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.

Bundan əlavə, İlham Əliyev və Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar.

”Unikal” xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

Bildirildi ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Kompleksin ərazisinə tarixi abidələr, Pənahəli xanın iqamətgahı, qonaq evi, Mehdiqulu xanın məqbərəsi, Xanoğlan məqbərəsi, İbrahim xanın məqbərəsi, Pənahəli xanın məqbərəsi, Xurşidbanu Natəvanın abidəsi və qəbiristanlıq daxildir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı erməni vəhşiliyinin canlı şahididir. Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən, bu kompleksin bərpası işlərinə başlanılıb. Həmçinin 2022-ci il oktyabrın 4-də XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin bərpadan sonra açılışı olub.

İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək. Sonra dövlət başçıları Qarabağ atlarına baxdılar.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarova Qarabağ atı hədiyyə etdi.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Qırğızıstan Prezidenti Sadır Japarova işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə məlumat verdi. Qeyd edildi ki, inşa olunacaq Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq.



Sonda dövlət başçılarına Füzulinin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verildi. Bildirildi ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının təmin edilməsi məqsədilə hazırlanmış “ağıllı şəhər” konsepsiyası irəli sürülüb. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq. Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, “Poeziya” meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.

# İlham Əliyev Şarl Mişeli COP29-a dəvət etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişeli Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvət edib.***

“Unikal” xəbər verir ki, bu barədə Azərbaycanın Belçika və Lüksemburqdakı səfiri Vaqif Sadıqov “X” sosial şəbəkəsində yazıb.

# Elmira Süleymanova vəfat etdi



***Azərbaycanın ilk İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova vəfat edib.***

“Unikal” xəbər verir ki, o, 87 yaşında dünyasını dəyişib.

Elmira Teymur qızı Süleymanova 17 iyul 1937-ci ildə Bakı şəhərində anadan olub. Kimya elmləri doktoru, (1980), professor (1981), Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub. E.Süleymanova 2002-2019-cu illərdə Azərbaycanın İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) vəzifəsini tutub.

O, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə İnsan hüquqlarının qorunması sahəsində xidmətlərinə görə ”Şöhrət” və “Şərəf” ordeni ilə təltif edilib.

# Xocalıda 6 nəfərin qalıqları aşkar edildi



***Aprel ayının 24-də işğaldan azad edilmiş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində insan qalıqlarının aşkar olunması barədə məlumat daxil olub.***

“Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası birgə məlumat yayıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) təmsil olunan qurumların, o cümlədən Baş Prokurorluq, Dövlət Komissiyasının İşçi qrupu, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Fövqəladə Hallar Nazirliyi, ANAMA və Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitunun peşəkar mütəxəssis heyəti dərhal əraziyə ezam edilib.



İlkin araşdırma zamanı məlum olub ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq və abadlıq işləri zamanı Xocalı rayonunun Malıbəyli kəndi ərazisində (1988-ci ildə yeni salınmış “Məhəllə” adlanan ərazi) torpaq səthi üzərində insan qalıqları aşkar olunub.

Keçirilən baxış istintaq hərəkəti zamanı qazıntı işləri aparılarkən ən azı 6 nəfərə aid olduğu ehtimal edilən sümük fraqmentləri aşkar edilib.

Hazırda ərazidə olan insan qalıqlarının tam aşkar edilməsi istiqamətində işlər davam etdirilməklə, sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, onların torpaqda qalma müddətinin müəyyən edilməsi məqsədilə məhkəmə-tibb ekspertləri və mütəxəssislərin iştirakı ilə baxış davam etdirilir, eləcə də digər zəruri prosessual hərəkətlər icra edilir.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:21 PM Page 7





## Türkiyə Ermənistanla sərhədin açılması üçün şərt qoydu

***Türkiyənin Ermənistanla sərhədlərin açılması məsələsi ilə bağlı mütəmadi olaraq Azərbaycanla məsləhətləşmələr aparılır.***

Bunu Modern.az-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay deyib.

O qeyd edib ki, hazırkı vəziyyətdə Azərbaycan və Ermənistan arasındakı münasibətlər Türkiyə ilə rəsmi İrəvan münasibətlərinə də təsir edir.

"Ona görə də son vəziyyətləri çox diqqətlə izləyir və Azərbaycan tərəfi ilə danışıqlar aparırıq. Bunu bildirək ki, Türkiyə-Ermənistan sərhədlərinin açılmasının başlıca şərti Qarabağ məsələsinin tamamilə həll olunması idi. Sonrakı proses Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsi olmalı idi. Bundan sonra Ermənistanla sərhədlərin açılması və dogər məsələlər gündəmdə ola bilər",- deyə Komitə sədri bildirib.

## Komitə sədri vətəndaşlarla görüşdü

***Aprelin 25-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün genişmiqyaslı tədbirlər həyata keçirilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi qeyd olunub.

Komitə sədrinin fərdi qaydada qəbul etdiyi məcburi köçkünlər də tezliklə doğma yurda qayıdacaqlarına əmin olduqlarını bildiriblər. Qəbulda iştirak edən vətəndaşların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Vətəndaşlara bildirilib ki, müraciətləri və qaldırdıqları məsələlər araşdırılacaq, qanunvericiliyə uyğun şəkildə həll ediləcəkdir.

# “Dörd kəndimizin danışıqlar yolu ilə qaytarılması tarixi hadisədir”

## Azər Badamov: “Əgər kənar güclər müdaxilə etməsələr, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi sürətlənər”

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasından, Azərbaycanla Ermənistan arasında ilk sərhəd dirəyinin quraşdırılmasından, sülh müqaviləsinin nə vaxt imzalana biləcəyindən və Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən danışıb.***

***-Azər müəllim, bu günlərin ən mühüm məsələlərindən biri Qazaxın 4 kəndinin Azərbaycana qaytarılması barədə Ermənistanla razılığın əldə edilməsidir. Bundan sonrakı dövrdə digər 4 kəndin nə zaman qaytarılmasının şahidi ola bilərik?***

-Dörd kəndimizin danışıqlar yolu ilə qaytarılması tarixi hadisədir. Bu, Azərbaycanla Ermənistan arasında həllini gözləyən növbəti məsələlərin də danışıqlar müstəvisində həll olunacağına ümid verir. Əgər kənar güclər müdaxilə etməsələr, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi sürətlənər və qısa zaman kəsiyində sülh müqaviləsinin ilkin variantının razılaşdırılması prosesi öz həllini tapmış olar. Bunun üçün Ermənistan Azərbaycana qarşı ərazi iddialarından birdəfəlik əl çəkməlidir. Əgər Ermənistan Azərbaycana qarşı heç bir iddia irəli sürməzsə və danışıqlara xələl gətirəcək terminlərdən imtina edərsə, biz də Ermənistana qarşı heç bir ərazi iddiasını bildirməyəcəyik və 1991-ci ildə imzalanmış Alma-Atı Bəyannaməsinə uyğun delimitasiya prosesi davam etdiriləcək. İşğalda qalmış 4 kəndin qaytarılması məsələsi də sərhədlərin delimitasiya prosesi çərçivəsində qarşılıqlı razılaşma yolu ilə həll oluna bilər. Çünki sərhəd xəttinin dəqiqləşməsi prosesində müəyyən məsələlər ortaya çıxacaq ki, həmin məsələlərin həlli çərçivəsində müəyyən razılaşmalar əldə olunacaq.

***-Digər bir məsələ isə Azərbaycanla Ermənistan arasında ilk sərhəd dirəyinin quraşdırılmasıdır. Bu delimitasiya prosesinə necə təsir göstərəcək?***

Azərbaycanla Ermənistan arasında ilk sərhəd dirəyinin quraşdırılması delimitasiya prosesinə başlanılmasının bir ilkidir. Dörd kəndimizin qaytarılması Ermənistanın Qazax rayonu ilə bitişik 14 kilometrə qədər sərhədin delimitasiyası prosesinin həyata keçirilməsi deməkdir. Yəni, burada sərhədlərin haradan keçdiyi artıq məlumdur. Bununla yanaşı digər ərazilərin də delimitasiya prosesi davam etdirləcək. Amma bu çox çətin və vaxt aparan bir prosesdir. Buna baxmayaraq prosesə start verilib və müvafiq komissiya mərhələli şəkildə öz işini davam etdirəcək.

***-Tezliklə sülh müqaviləsi imzalana bilərmi?***

-Sərhədlərin delimitasiyası ilə sülh müqaviləsinin imzalanması ayrı-ayrı məsələlərdir. Bu iki məsələni bir-birinə qarışdırsaq, sülh müqaviləsinin imzalanması prosesi on illər çəkə bilər. Məsələn, Ermənistanla Gürcüstan dost ölkələr olsa da, dövlət sərhədləri hələ də delimitasiya olunmayıb. O cümlədən, Azərbaycanla Gürcüstan dostluq və əməkdaşlıq etsə də bu günə qədər dövlət sərhəddinin cəmi 70%-i delimitasiya olunub. Sərhədlərin delimitasiyası ağır və çox vaxt aparan bir proses olduğundan sülh müqaviləsinin imzalanması delimitasiyadan ayrı öz həllini tapmalıdır. Bununla yanaşı sülh müqaviləsində tərəflərin delimitasiyanın davam etdirilməsinə sadiqliyini əks etdirən bir maddənin də salınmasını vacib hesab edirəm.



Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün elə də böyük fikir ayrılıqları qalmayıb. Üç il əvvəl Ermənistan qondarma Qarabağın statusu ilə bağlı fikirlər səsləndirməyə çalışırdısa, bu gün bu məsələ tamamilə gündəmdən çıxıb. 19 sentyabr 2023-cü ildə keçirdiyimiz lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin bütün ərazilərində suverenliyimiz bərpa olunub. Bu gün Ermənistan hakimiyyəti Qarabağla bağlı fikirlərin gündəlikdə qalmadığını ifadə edir. Bütün bunları nəzərə alaraq demək olar ki, tərəflər Alma-Atı Bəyannaməsinə sadiqliyini bildirərək suverən ərazilərini özündə əks etdirən dövlət sərhədinin delimitasiyasına razılaşıblar. Bu baxımdan, sülh müqaviləsini delimitasiya prosesinin gedişatını gözləmədən razılaşdıraraq imzalamaq mümkündür. Qazaxıstanda XİN rəhbərlərinin görüşü nəzərdə tutulur. Hesab edirəm ki, bu görüşdə sülh müqaviləsi ətrafında əsas məslələr müzakirə olunaraq razılaşdırılacaqdır.

***-Prezident İlham Əliyev ADA Universitetində təşkil olunan beynəlxalq forumda çıxışında Zəngəzur dəhlizi ilə bağlı bildirib ki, 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanatda bu məsələ aydın şəkildə əks olunub. Dövlət başçısı qeyd edib ki, onlar Naxçıvan Muxtar Respublikası ilə yol əlaqəsini qurmaq imkanını bloklayır. Zəngəzur dəhlizi nə zaman açıla bilər?***

-Zəngəzur dəhlizinin açılması Ermənistanın öhdəliyidir. Bu öhdəliyi Ermənistan 10 noyabr 2020-ci ildə dövlət başçılarının imzaladığı Üçtərəfli Bəyanatla götürüb. O zaman Ermənistan bu öhdəliyi götürməsəydi, müharibə davam edəcəkdi və Xankəndindəki 15 mindən çox silahlısı məhv olunacaqdı. Ona görə də Ermənistan bu sənədə imza atmağa məcbur oldu. Düzdür, Üçtərəfli Bəyanatda Zəngəzur dəhlizi termini istifadə olunmur. Amma bu Bəyanatın 9-cu maddəsində Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında maneəsiz keçidin yaradılması və bu yola Rusiya sərhədçilərinin nəzarət etməli olduğu açıq şəkildə qeyd olunub. Təəssüf ki, Ermənistan bu öhdəliyi yerinə yetirməkdən boyun qaçırır və bloklayır. Amma Zəngəzur dəhlizinin açılması labüddür. Buna baxmayaraq Azərbaycan Zəngəzur dəhlizinin nə vaxt açılacağını gözləmir. Ona görə də İran ərazisindən Araz çayı sahili boyu yeni bir yolun tikintisi razılaşdırılıb. Artıq Azərbaycan və İran rəsmiləri Araz çayı üzərində avtomobil körpüsünün tikintisi layihəsinin bünövrəsini atıb. Sonra isə dəmir yolu körpüləri çəkiləcək. Ermənistan Zəngəzur dəhlizinin açılmasını bloklamaqda davam edərsə, özü-özünü yenidən blokadaya salmış olacaq. Ermənistan sülh qovşağı layihəsindən danışır. Amma unudurlar ki, bu layihə ilə bağlı regiondan uzaqda yerləşən dövlətlərlə yox, Azərbaycanla razılığa gəlmək lazımdır. Ona görə ki, bu layihəyə görə heç kim Ermənistan ərazisindən dəmir yolunun çəkilməsinə 5-7 milyard dollar investisiya yatırmaq fikrində deyil. Azərbaycanda isə bu yol infrastrukturu mövcuddur. O cümlədən Naxçıvan-Qars dəmir yolunun tikintisi məsələsi də elan olunub. Həm də Azərbaycanın İranla dəmir yol bağlantısı yaranır. Biz Cənub-Şimal nəqliyyat dəhlizinin Fars körfəzinə qədər uzanmasının üzərində aktiv işləyirik. Gələn il Füzuli-Zəngilan dəmir yolunun tikintisi başa çatacaq. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Ermənistan könüllü şəkildə Zəngəzur dəhlizinin açılmasına razılıq verməsə, yenə də 30 ildə olduğu kimi bataqlıqda qalamaqda davam edəcək.

***Anar Kəlbiyev***

# Yeni məmur həbsləri gözlənilir

## Hesablama Palatası ötən il 563 milyon manatlıq maliyyə pozuntusu aşkarlayıb - "Gözü çıxan qardaşlardan" dərs almayanlar kimlərdir?

***Son 6 ildə Azərbaycanda korrupsiya və rüşvətxorluqla mübarizə tədbirləri çərçivəsində iri, orta və xırda məmurların həbsi həyata keçirilib. İndiyədək nazir, nazir müavinləri, generallar, icra başçıları, bələdiyyə sədrləri də daxil olmaqla, onlarla vəzifəli şəxs ya cinayət başında, ya da aparılmış yoxlamalar nəticəsində qandallanıb. Bir müddətdir ki, məmur həbslərinin bir qədər azaldığı, səngidiyi hiss edilir. Bu da onunla izah olunur ki, son illərdə aparılmış həbslərdən, antikorrupsiya tədbirlərindən digər məmurlar nəticə çıxarmağa başlayıblar. Görəsən, həqiqətən belədirmi?***



Təzəlikcə məlum oldu ki, 2023-cü ildə Hesablama Palatasının başa çatdırdığı kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə 562,5 milyon manatlıq maliyyə pozuntusu aşkar edilib. Bu barədə Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatda bildirilirdi.Sənədə əsasən, bunun 103,2 milyon manatı dövlət büdcəsinə vurulmuş zərər, 459,3 milyon manatı isə digər maliyyə pozuntularıdır.

Qurumun kollegiyası büdcə zərərinin 60,7 milyon manatının pul və natura şəklində bərpası, eləcə də əvəzləşdirilməsi istiqamətində təkliflər verib. Zərərin 28,8 milyon manatı əhaliyə sosial ödənişlərdən ibarət olduğundan onun bərpası istiqamətində tədbir müəyyən edilməyib, ödənişlərin bir qisminin dayandırılması barədə qərar verilib. 13,7 milyon manat zərər üzrə cinayət tərkibinin əlamətlərinin ehtimal olunması ilə əlaqədar müvafiq materiallar hüquq-mühafizə orqanlarına göndərilib.

Digər maliyyə pozuntuları isə Vahid Büdcə Təsnifatına əməl olunmaması, satınalma prosedurlarının tətbiq edilməməsi, bu prosedurlardan yayınmaq məqsədilə müqavilənin qisimlərə bölünməsi, mal və xidmət alışının orta bazar qiymətindən baha əldə edilməsi nəticəsində dövlət vəsaitinə qənaət olunmaması, satınalmalar zamanı ehtimal olunan qiymətin ümumiyyətlə hesablanmaması, ilin sonunda qalığın büdcəyə xərclənməməsi, müşayiətedici sənədlərlə rəsmiləşdirilməyən elektron-qaimə fakturaların təqdim edilməsi və s. pozuntular olub. Bu pozuntulardan 34,9 milyon manat üzrə Palatanın kollegiyası birbaşa tədbir müəyyən edib, digər nöqsan və çatışmazlıqların da aradan qaldırılması məqsədilə kollegiya qərarı kənar dövlət maliyyə nəzarəti obyektlərinə və nəzarət tədbirinin predmeti ilə əlaqədar aidiyyəti tərəflərə göndərilib.Kollegiyanın müəyyən etdiyi tədbirlər əvvəlki dövrdən qalan debitor borcların və məbləği artırılmış kreditor borcların bağlanılması, fiziki və hüquqi şəxslər üzrə artıq ödənişlərin gələcək hesablaşmalarda nəzərə alınması, akkreditiv hesabın bağlanması, müqavilə məbləğinin azaldılması, vəsaitin əsassız ödənilməsi hallarının araşdırılması, artıq ödənilmiş elektron qaimə-fakturanın ləğvi, qalığın büdcəyə qaytarılması və s. ilə bağlı olub.

Başqa bir maraqlı məqam: 2023-cü ildə Hesablama Palatası 8 nəzarət tədbiri üzrə Baş Prokurorluğa, 1 nəzarət tədbiri üzrə isə Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) müraciət edib. Bu barədə də Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatında bildirilib.Sənədə əsasən, Tibbi Ərazi Bölmələrini idarəetmə Birliyinin (TƏBİB) Sumqayıt Tibb Mərkəzinin (1), Təhsil Nazirliyinin tabeliyindəki Naxçıvan Dövlət Universitetinin (2), Gənclər və İdman Nazirliyinin (3), ləğv edilmiş Bakı Nəqliyyat Agentliyinin (4), Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin (5), Mədəniyyət Nazirliyi yanında Kino Agentliyinin (6), TƏBİB-in Gəncə Şəhər Birləşmiş Xəstəxanasının (7), "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin (8) fəaliyyətində aşkar olunmuş nöqsanlarla bağlı Baş Prokurorluğa, Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətində aşkar olunmuş nöqsanlarla bağlı isə DTX-ya müraciət olunub.

Yazının əvvəlində də vurğuladıq ki, son 6 ildə, bir az da konkretləşdirsək, 2018-ci ildən etibarən Azərbaycanda rüşvət və korrupsiyaya qarşı mübarizənin faktiki olaraq yeni mərhələsinə start verilib, bir neçə rayonun icra başçısı, sabiq nazir, yaxud generallar, bəzi nazirliklərin nazir müavinləri, idarə rəisləri, bələdiyyə sədrləri daxil olmaqla yüksək vəzifəli şəxsləri saxlanılıb, istintaqa cəlb olunub və barələrində həbs qərarı çıxarılıb. Bundan başqa, bəzi nazirlər də daxil olmaqla iri məmurlar postlarından kənarlaşdırılıblar.

Lakin 2023-cü ildə yarım milyard manatdan artıq maliyyə pozuntusunun aşkarlanması, bir çox pozuntularla bağlı DTX-yə və Baş Prokurorluğa müraciət olunması belə qənaət yaradır ki, bəzi vəzifə sahibləri hələ də həbslərdən, sərt cəza tədbirlərindən lazımi dərs almamaqda, vəzifədən kənarlaşdırılan və ya cinayət məsuliyyətinə cəlb olunan məmurlardan, obrazlı desək, "gözü çıxmış qardaşlarının" aqibətindən ibrət götürməyiblər. Yəni son zamanlar məmur həbslərinin azalmasından danışarkən bunun hələ də vəzifədə olan şəxslərin nəticə çıxarmağa başlaması ilə izah etmək ağlabatan görünmür.

Belə aydın olur ki, bir çoxları üçün tutduqları vəzifə hələ də korrupsiya, yeyinti, mənimsəmə vasitəsi olaraq qalır.

Bu isə o deməkdir ki, qarşıdakı dövrdə hansısa vəzifəli şəxsin həbsi barədə xəbər eşitsək, oxusaq qətiyyən təəccüblənməməliyik. Büdcə vəsaitlərinə yan gözlə baxanlar olduğu müddətcə məmur həbsləri də sürpriz olmayacaq.

*Sənan Mirzə*

# "İsmayıllıda və Nabranda istirahət edirəm" - Cahangir Əsgərov



***"Mən artıq təqaüdə çıxmışam. Hazırda pensiya alıram". Bunu "Unikal"a açıqlamasında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) sabiq prezidenti Cahangir Əsgərov deyib.***

O bildirib ki, Milli Aviasiya Akademiyasının AviaNəqliyyat istehsalatı kafedrasının müdiri vəzifəsindən də ayırılıb: "Vəzifədə olmadan akademiyada necə dərs deyə bilərəm? İnsanların mənimlə bağlı sosial şəbəkələrdə yazdıqlarına çox rahat baxıram. Hər kəs öz işi ilə məşğul olur. Sosial şəbəkələrdə mənim rəqs etdiyim videonu paylaşırdılar. Əgər o adamlar məni biabır etmək istəyirlərsə, mən onlara bir söz demirəm. İndi mən övladlarımla, nəvələrimlə İsmayıllıda və Nabranda istirahət edirəm, amma ölkədən kənara çıxmıram. Özüm ərizə yazıb işdən ayrılmışam".

*Murad İbrahimli*

# Fuat Oktay 4 kəndin Azərbaycana qaytarılmasından danışdı



***"Dost, qardaş Azərbaycan 30 ildən sonra Vətən müharibəsi ilə Qarabağı işğaldan azad etdi. Azərbaycanı bir daha ürəkdən təbrik edir, bu tarixi zəfərdən böyük sevinc duyduğumuzu ifadə etmək istəyirəm".***

Bu fikirləri Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktay Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin Birinci İclasında bildirib.

"Ermənistan tərəfindən uzun illərdir işğal altında saxlanılan 4 kəndin də Azərbaycana qaytarılması ilə bağlı əldə olunan ilkin razılaşmanı məmnuniyyətlə qarşılayır, azərbaycanlı qardaşlarımızı təbrik edirəm. Zəngəzur dəhlizinin ən qısa zamanda açılması da son dərəcə əhəmiyyətlidir. Dəhlizin açılması Türkiyəni ata yurdumuz olan Orta Asiyaya bağlayacaq və türk coğrafiyasının bütövlüyünü təsis edəcək. Bu müddətin uğurla tamamlanması üçün Türkiyə olaraq Azərbaycana dəstəyimizi davam etdiririk. Bu dəhlizin açılması Ermənistanın, İranın, Gürcüstanın da içərisində olduğu bölgəyə sülh gətirəcək, eyni zamanda bölgədə iqtisadi yüksəlişə səbəb olacaq" , - F.Oktay vurğulayıb.

Qeyd edək ki, tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Şimali Kipr, Özbəkistan, Macarıstan, Qırğızıstan nümayəndə heyətləri iştirak edir.

# Bakıda 3 məktəbin direktoru cəzalandırıldı

***Bakıda 39, 153 və 182 nömrəli tam orta məktəblərin direktorları barəsində intizam tənbeh tədbiri görülüb.***

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin paytaxtdakı ümumi təhsil müəssisələrində apardığı monitorinqlər nəticəsində qərar verilib.

Məktəb direktorlarına sənədləşmə, pedaqoji və inzibati heyətin məsuliyyətinin artırılması, metodiki işin təşkili və digər müvafiq istiqamətlər üzrə çatışmazlıqların qısa müddətdə aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar verilib.

Qeyd edək ki, səmərəli tədris mühitinin formalaşdırılmasına nail olmaq məqsədilə keçirilən monitorinqlər davamlı xarakter daşıyır.

14_27 IYUI-QARA.qxd 4/25/2024 10:21 PM Page 9






## Azərbaycanın rəqəmsal inkişafı BMT-də diqqət mərkəzindədir

***Aprelin 22 - 26-sı tarixlərində Tailandın Banqkok şəhərində BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 80-ci sessiyası keçirilib.***

"Unikal" xəbər verir ki, İRİA-nın sədrinin müavini Rəşad Xalıqov Sessiya çərçivəsində 22 apreldə baş tutan paralel tədbirdə "Rəqəmsallaşmanın genişlənməsi: İnnovasiyanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində rolu" mövzusunda natiq qismində çıxış edib. Agentlik rəsmisi öz çıxışında Azərbaycanın regiondakı rəqəmsal inkişafa verdiyi töhfədən bəhs edərək rəqəmsallaşmada region ölkələri ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb və UNESCAP ilə bu istiqamətdə əməkdaşlığın yeni potensialın kəşfinə yol açacağından əminliyini ifadə edib.

Növbəti gün - 23 aprel tarixində əsas tədbirin plenar iclasında da iştirak edən R. Xalıqov "Asiya - Sakit okean regionunda davamlı inkişaf üçün rəqəmsal innovasiyaların tətbiqi" mövzusunda çıxış edib. O, tədbir iştirakçılarına Azərbaycanın rəqəmsal hökumət quruculuğu haqqında məlumat verərək bildirib ki, mövcud elektron hökumət portalı 400-dən çox dövlət xidmətini ölkə vətəndaşları üçün yüksək səviyyədə əlçatan edib. Agentlik rəsmisi "digital.login" sisteminin 100-dən çox dövlət və özəl sektor qurumu tərəfindən istifadə edildiyinə diqqət çəkib və bunun informasiyanın ötürülməsinin effektivliyini və səmərəliliyini artırdığını vurğulayıb. "Azərbaycanda sosial sahə, təchizat, ədliyyə, notariat, təhsil, qida təhlükəsizliyi, vergilər və digər sektorları əhatə edən çoxşaxəli rəqəmsal həllər üzrə əhəmiyyətli inkişafa nail olmuşuq. Yaradılan platformalar hər bir vətəndaşın xüsusi ehtiyaclarını nəzərə alır, şəffaflıq və dayanaqlılığı təmin edir", - deyə Rəşad Xalıqov tədbir iştirakçılarını məlumatlandırıb.

Bununla yanaşı, o, Azərbaycanın kağızsız sənəd dövriyyəsi kimi həm rəqəmsallaşmanı sürətləndirən, həm də ətraf mühitin mühafizəsinə töhfə verən layihələrindən də bəhs edib və bu xüsusda COP29-un Azərbaycanda bu il keçirilməsini ölkəmizin dayanıqlı ətraf mühitin təşviq edilməsi yolunda sadiqliyinin təzahürü olduğunu bildirib.

Qeyd edək ki, BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının hər il keçirilən sessiyası regional əməkdaşlıq, iqtisadi və sosial inkişaf üçün platforma rolunu oynayır. Sessiyanın rəqəmsallaşma istiqaməti BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün region ölkələrindən olan dövlət nümayəndələri və digər maraqlı tərəfləri bir araya gətirərək ortaq səylərin gücləndirilməsini hədəfləyir.

# Zakir Qaralova iflas şoku

## Azərbaycanın məşhur şirkəti müflisləşməyə doğru gedir?

***Azərbaycanın ən iri inşaat şirkətlərindən olan "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yığılmış vergi borcu gündən-günə artır.***

Şirkətin bu günədək yığılmış vergi borcu 15 227 445 manat təşkil edir."Akkord"un indiyə qədər vergi borcunu ödəməməsinin səbəbi məlum deyil. Amma Vergi Məcəlləsinin 23-cü maddəsinə əsasən vergi borcunun gecikdirilməsinə görə sanksiyalar nəzərdə tutulub.

Xatırladaq ki, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC 2006-cı ildə qeydiyyata alınıb. Şirkətin nizamnamə kapitalı 83 259 750 manatdır, onun qanuni təmsilçisi isə Ayhan Keskinkılıcdır. Bu ASC-nin rəsmi saytında bildirilir: "Fəxrlə deyə bilərik ki, Cənubi Qafqazda tikinti sektorunun lider şirkətlərindən olan Akkord Korporasiyası qısa müddət ərzində yaşayış binalarının tikintisi və satışı, həmçinin digər ictimai obyektlərin və infrastruktur layihələrinin tikintisi, inşaat materiallarının istehsalı və emalı sahəsində yüksək nailiyyətlər əldə etmişdir"...

Şirkətin rəsmi saytında həmçinin onun 5 ölkədə beynəlxalq ofislərinin olduğu vurğulanır, 46 layihə təhvil verdiyi və ümumi dəyəri 3,5 milyard AZN olan layihə icra etdiyi göstərilir.

Yeri gəlmişkən, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin icra etdiyi bəzi layihələrin keyfiyyəti də zaman-zaman mübahisə predmetinə çevrilib. Bu sırada 30 il təminatla çəkilən və ümumilikdə 545 milyon 287 min 800 manat xərclənən Bakı-Quba-Rusiya yolu xüsusilə diqqət çəkib. Həmin yol istifadəyə verildikdən qısa müddət sonra çöküb, nəticədə bir neçə ildir yolun müxtəlif hissələri tamamilə yenidən qurulur.



Onu da deyək ki, adıçəkilən ASC-nin vergi borcunun 15 milyon manatı ötməsi bəzi KİV-lərdə şirkətin müflisləşə biləcəyinə dair iddialara yol açıb. Lakin "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" nə məlum borcunun artması, nə də iflas iddiaları ilə bağlı hər hansı münasibət bildirməyib.

Bundan başqa, hələ fevral ayında yerli mediada adıçəkilən ASC-nin kütləvi şəkildə məhkəməyə verildiyinə dair xəbər yayılmışdı. Həmin vaxt bildirilirdi ki, iddiaçılar arasında "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Azəriqaz" İstehsalat Birliyi, "Texnikabank" ASC, "Azturmak" MMC, Dövlət Radiotezliklər İdarəsi, "Zəyəm Texnologiyaları" ASC, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti kimi iri biznes və dövlət qurumlarının adına da rast gəlinir.

"Ümumilikdə, "Akkord"a qarşı 43 iddia qaldırılıb. Onların arasında şirkətin işçiləri də var. Tələb işə bərpa və əmək haqqının ödənilməsi ilə bağlıdır.

Ayrı-ayrı vətəndaşların iddiaları isə borcla bağlıdır. Belə məlum olur ki, şirkətin onlara hansısa formada borcu var. Həmin borclar hətta 2022-ci ildə Milli Məclisdə gündəmə də gəlmişdi. Belə ki, deputat Fazil Mustafa parlamentin iclasında bildirmişdi ki, artıq vətəndaşlar bankdan borc istəmir, deputatdan istəyir, məşğulluqdan iş istəmir, deputatdan istəyir: ""Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC onlarla fəhləni işlədib, pulunu verməyib. Rayonlarda onlarla insan maaş, pensiya kartını sələmçiyə verib, çünki dolana bilmirlər. Bu qədər böyük qələbə qazanmış ölkənin Prezidentinin xalqa qaytardığı inamı bunlar yenidən zədələməsinlər. Bu bizim qarşımızda duran əsas məsələdir".

Yerli medianın yazdığına görə, "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"na qarşı iri şirkətlərin tələbləri də əsasən borcla bağlıdır".

Beləliklə, vergi borcu 15 milyon manatı ötən şirkətin əlavə borcları da var. "Bu fakt artıq "Akkord"un son akkordlarını vurması ehtimalını artırır. Mümkündür ki, yaxın günlərdə şirkət iflas etdiyini açıqlasın" deyə yerli KİV iddia edir.

Lakin bütün bunlarla bağlı "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"dan açıqlama verilmədiyi kimi şirkətdən də hər hansı münasibət öyrənmək mümkün olmayıb.

Xatırladaq ki, "Akkord" uzun illər mediada keçmiş baş prokuror Zakir Qaralovun şirkəti kimi tanınıb. Qaralovun sabiqlərin sırasına qoşulmasından sonra şirkətin fəaliyyətində axsamaların müşahidə edilməsi bu iddiaların əsassız olmadığı qənaətini yaradır.

Qeyd edək ki, hazırda 68 yaşı olan Zakir Qaralov 2020-ci ilin mayında Baş prokuror vəzifəsindən yola salınıb. O, 2000-ci ildən bu yana, yəni 20 il müddətində həmin postu tutmuşdu.

**Sənan Mirzə**

# Azərbaycanda əhalinin 75%-i "TikTok"un bağlanmasını istəyir

***Dünyada sosial medianın mənzərəsi sürətlə dəyişir. Tədqiqatlar xüsusən "TikTok" media platformasının populyarlığının sürətlə artdığını və dünyada gənclər arasında ən çox istifadə edilən beş sosial media platformasından biri olduğunu göstərir.***

"Unikal" xəbər verir ki, bu barədə Sosial Tədqiqatlar Mərkəzinin məlumatında deyilir.

Qeyd edilir ki, STM tərəfindən ölkə üzrə gənclər arasında keçirilmiş sorğular da "TikTok"un ən çox istifadə edilən üç platformadan biri olduğunu aşkar edib.

Bununla belə, dünyada bir milyarddan çox istifadəçiyə malik bu sosial media platformasının təhlükəsizlik riskləri və digər səbəblərdən bir sıra ölkələrdə məhdudlaşdırılma tendensiyası müşahidə olunur.

Azərbaycanda da gənclərin, yeniyetmələrin formalaşmasına mənfi təsir edən video kontentlərin paylaşılması, etik prinsiplərin və milli dəyərlərin gözlənilməməsi səbəbindən sözügedən media platformasına məhdudiyyətlərin tətbiqi vaxtaşırı ictimai gündəm yaradıb. Buradan irəli gələrək, STM tərəfindən keçirilən sorğularda "TikTok" media platformasına məhdudiyyətlərin tətbiqi barədə ictimai mövqe öyrənilib. Sorğunun nəticələrinə əsasən, 74,9% "TikTok" sosial media platformasına məhdudiyyətlərin tətbiq edilməli olduğunu ifadə edib. 21,2% məhdudiyyətləri dəstəkləmədiyini bildirib, 3,9% fikir bildirməkdə çətinlik çəkib.

Respondentlərin bu barədə rəylərində əsas fərq yaş qrupları üzrə qeydə alınıb. Belə ki, gənc yaş qrupuna aid hər üç nəfərdən ikisi məhdudiyyətlərin tətbiq edilməməsi mövqeyindən çıxış edib.

Sorğular 2024-cü ilin 15-18 mart tarixlərində, 18 yaş və ondan yuxarı 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Seçmə ehtimallı üsulla ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olu-




nub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub.

Sorğular tam anonim və könüllü iştirak əsasında aparılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:21 PM Page 10



# Abel Məhərrəmovun adı ətrafında növbəti böyük qalmaqal

## Azərbaycanın ilk və ən böyük universitetinin keçmiş rektoru ilə onun xanımı niyə məhkəməyə verildi?

***Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, akademik Abel Məhərrəmov məhkəməyə verilib. Bu barədə "qaynarinfo" xəbər verib ki, iddiaçı Əmirov Nazim Fərrux oğlu adlı şəxsdir.***

Onun iddia tələbi torpaq sahəsinin boşaldılması və qanunsuz tikilinin sökülməsi ilə bağlıdır. Birinci instansiya məhkəməsi iddianı təmin etməyib. Nazim Əmirov apellyasiya şikayəti verib. Şikayətə Sumqayıt Apellyasiya Məhkəməsində baxılır. İş hakim Fuad



Məmmədovun icraatındadır. Mayın 7-nə iş üzrə məhkəmə baxış iclası təyin edilib. Nazim Əmirov Abel Məhərrəmovla yanaşı, onun xanımı Rəhimə Mahmudovanı, Tağıyev İlqar Nizami oğlunu və Tağıyev Nizami Haqverdi oğlunu da məhkəməyə verib.

İddialara görə, məsələnin kökündə Abel Məhərrəmovun Xaçmaz rayonunun Seyidlikəndyeri kəndindəki oteli ilə bağlıdır. Bu otelin tikintisinə 2008-ci ildə icazə verilib.

Rəsmi sənədlərdə tikintinin sifarişçisi kimi Rəhimə Mahmudovanın adı qeyd edilib. Layihəni icra edən isə "Grandproje" şirkəti olub.

Seyidlikəndyeri Nabran qəsəbəsinin yaxınlığında yerləşir və Nabran bələdiyyəsinin ərazisi hesab edilir. Bir neçə il əvvəl mediada yayılan məlumatlarda bildirilirdi ki, Nabranda fəaliyyət göstərən "El Faro hotel Nabran" Abel Məhərrəmova məxsusdur. 200 hektar ərazidə yerləşən obyektin 61 milyon manat dəyərində olduğu iddia edilir.

Baş verənlərlə bağlı Abel Məhərrəmovun mövqeyini öyrənmək mümkün olmayıb.

Onu da deyək ki, vəzifəsindən çıxarılandan sonra "kölgəyə" çəkilən akademik Abel Məhərrəmovun böyük varidata sahib olduğuna dair çoxsaylı iddialar var. Bildirilib ki, Məhərrəmov həmin vəzifədə olduğu illər ərzində özünə biznes imperiyası qurub. Sabiq rektor həyat yoldaşının biznes imperiyasında önəmli rola sahibdir. Məsələn, yuxarıda adı çəkilən "El Faro hotel Nabran" ailəvi istirahət mərkəzi Abel müəllimin qızı İzabellanın adına qeydiyyatdan keçib. İzabellanın adına sabiq rektorun şadlıq sarayı da var. Söhbət Bakıda "Elmlər Akademiyası" metrostansiyası yaxınlığında yerləşən, dəyəri 23 milyon manat civarında ölçülən "İzabella" şadlıq sarayından gedir.

Məhərrəmovun ailə biznesinə daxil olan obyektlər isə bunlardır: "Mono Liza" - Bakıda ən bahalı və məşhur şadlıq sarayı (dəyəri 12 milyon manat civarında ölçülür; ünvan: Bakı, Nərimanov, Yusif Vəzir Çəmənzəminli,1596); Bakıda 11 müxtəlif ərazidə SPA idman salonları (hər birinin dəyəri 4-7 milyon manat aralığında dəyişir); "Sahil" ticarət mərkəzində ən bahalı "Ramsey" mağaza (İtaliya-Türkiyə istehsalı olan kişi kostyumları mağazaları şəbəkəsi); başqa bir qızı Nərminə Sadıqovaya məxsus "Qlobus" uşaq baxçası və s.

Sabiq rektorun ailə üzvlərinin ixtiyarında dünyanın ən müasir son model avtomobilləri - "Lamborghini", "Bentley", "Porsche Cayenne" "Land Rover", "Mercedes AMG" (son model, zirehli, dəyəri 1 milyon 800 min manat avro), "Audi Q7", "Audi Q8" (son model, qiyməti 450 min avro), "Mercedes Gelandewagen" (qiyməti 250 min avro), "BMW X6" (son model - qiyməti 200 min avro), "BMW -760" (qiyməti 400 min avro), bundan başqa, ölkənin müxtəlif ərazilərində daşınmaz əmlaklar - Binəqədidə Vorovski deyilən ərazidə 2 villa, Quba, Xızı rayonlarının hər birində 1 villa, eləcə də, Nabranda, Şüvəlan və Mərdəkan qəsəbələrində, AMEA yaxınlığında yerləşən milyonçular məhəlləsində 1 villa, N.Nərimanov heykəlinin yanında dəyəri 1 milyon manatdan yüksək olan mənzil və s. var.

Maraqlıdır ki, bu biznes imperiyasını korrupsiya əməliyyatları nəticəsində qurduğu yönündə iddiaları cavabsız buraxan Abel Məhərrəmov adı ətrafındakı son qalmaqala - yazının əvvəlində bəhs etdiyimiz, məhkəməyədək uzanan torpaq mübahisəsinə də hələ ki, hər hansı reaksiya verməyib. Sabiq rektor bu xəbəri indiyədək nə təsdiq, nə də təkzib edib.

Xatırladaq ki, A. Məhərrəmov 1999-cu il yanvarın 11-də Bakı Dövlət Universitetinə rektor təyin olunub. 2018-ci ilin noyabrında isə vəzifəsindən kənarlaşdırılıb. Bunda Abel müəllimin biznes həvəsi dolayısı ilə rol oynamışdı. Belə ki, həmin vaxt yerli medianın yazdığına görə, 2011-ci il noyabrın 3-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə başda olmaqla geniş tərkibli Azərbaycan nümayəndə heyəti xüsusi reyslə İspaniyanın paytaxtı Madrid şəhərinə yola düşüb. Məqsəd bu ölkədə dini tolerantlıq mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək olub. Airbus-319A təyyarəsi ilə uçmağa hazırlaşan nümayəndə heyəti öz yerini tutduqdan sonra təyyarə 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə sərnişinlərdən birinin - sözügedən nümayəndə heyətində yer alan Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşməyə məcbur olublar. Yalnız A.Məhərrəmova və onun ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğluna məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib. KİV-ə sızan bilgilərdə haqqında danışılan yükün Abel müəllimin şərab biznesinə aid çəlləklər olduğu iddia edilib. Məhz bu qalmaqalın üstündən qısa müddət sonra Məhərrəmov rektor postunu itirdi.

O, indi yüksək postda deyil, lakin biznes maraqları səbəbindən qalmaqallar yaşamağa hələ də davam edir.

***Toğrul Əliyev***

# Məhkəmə Rauf Nağıyevin xeyrinə qərar verdi

## Sabiq baş həkim TƏBİB-dəki işinə bərpa oluna bilər



***Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının sabiq baş həkimi Rauf Nağıyevin TƏBİB-ə qarşı qaldırdığı iddia üzrə məhkəmə prosesi yekunlaşıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Nəsimi Rayon Məhkəməsində hakim Əfsanə Heydərovanın sədrliyi ilə keçirilən prosesdə iddiaçı qismində tanınan Rauf Nağıyev məhkəmə qarşısında keçmiş işinə bərpa olunma və əmək haqqı tələbi qoyub.

Məhkəmədə qərar elan edilib. Qərara əsasən, Rauf Nağıyevin iddiası təmin edilib.

Qeyd edək ki, uzun illər Bakı Şəhər Təcilli və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi olmuş Rauf Nağıyev 2023-cü ilin dekabr ayında TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun əmri ilə işdən çıxarılıb.

Qeyd edək ki, Rauf Nağıyev bir müddət əvvəl Səhiyyə Nazirliyində Səhiyyənin strategiyası sektorunun müdir müavini vəzifəsinə təyinat alıb. Bu məqamda onun əvvəlki vəzifəsində qayıdıb-qayıtmayacağı maraq doğurub.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən Rauf Nağıyev iddiasının məhkəmə tərəfindən təmin edildiyini təsdiqləyib: "Məhkəmə keçmiş işimə bərpa olunmağım barədə qərar qəbul edib. Mən isə hazırda Səhiyyə Nazirliyində çalışıram. Keçmiş işimə qayıdıb-qayıtmayacağımı demək hələ tezdir. Bu barədə daha sonra qərar verəcəm", - deyə o qeyd edib.

# "Kənddən Şəhərə" həftəsonu yarmarkaları təşkil ediləcək



***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 27-28 aprel tarixlərində paytaxtda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Yarmarkada ümumilikdə 20-yə qədər regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.***

"Unikal" xəbər verir ki, Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında keçiriləcək yarmarkada müxtəlif regionlardan əvvəlcədən qeydiyyatdan keçən fermerlər yerli kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar. Yarmarkada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək, burada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək.

Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, yerli və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Qeyd edək ki, "Kənddən Şəhərə" yarmarkalarında iştirak etmək istəyən fermerlər +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya və ya yarmarkanın sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla təmin olunacaqlar.

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:22 PM Page 11





# Sümbülə Əliyeva dövlətdən ayrılan 201 min manat vəkil haqqını mənimsəyib

***Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahmud Ağalarovun sədrliyi ilə həbsdə olan Cinayət Məcəlləsinin 179.3.2 və 213.1-ci maddəsi ilə təqsirləndirilən vəkil Sümbülə Əliyevanın növbəti məhkəmə prosesi keçirilib.***

”Unikal”ın məlumatına görə, dövlət ittihamçısı Ziya Mansurov ittiham aktını elan edib. Məlum olub ki, Sümbülə Əliyeva dövlət tərəfindən vəkillərə ayrılan qonorarları, həmçinin məcburi dövlət sosial sığorta haqlarını, dövlət vergilərini ödəməkdən yayınmaqla mənimsəmə və vergidən yayınma cinayəti törədib. Belə ki, mənimsəmə faktı üzrə 201 min, vergidən yayınma üzrə isə 71 min manat dövlətə ziyan vurub.

Təqsirləndirilən şəxs verilən ittihamlarla razı olmadığını bildirib və ifadə verib: ” Deyə bilərəm ki, əvvəllər mən maliyyə sənədlərinin araşdırılması ilə bağlı stress keçirmişəm. İndi cinayət işinin istintaq materialları ilə tanış olmaq istəyirəm”.

Hakim isə Sümbülə xanıma bildirib ki, hələ ev dustaqlığında olduğu müddətdə dəfələrlə ona istintaq materialları ilə tanış olmaq üçün şərait yaradıb.

Sümbülə xanım isə həmin vaxt sənədlərlə tanış olsa da o zaman hormonal dərmanlar qəbul etdiyi üçün istintaq materialları yadında qalmayıb, qeydlərinin isə evdə qaldığını bildirib.

Hakim isə cinayət işində Sumbülə xanımın istintaq materialları ilə tanış olması barədə cinayət işində protokolların olduğunu xatırladıb.

Təqsirləndirilən Sümbülə Əliyeva hakimin fikri ilə razılaşıb: ”Mən danmıram, o zaman həmin sənədlərlə tanış olmuşam. Ancaq mən evdən yox, Bakı İstintaq Təcridxanasından gəldiyim üçün o istintaq materialları əlimdə yoxdur. Xəstəliyimdə buna təsir edib, 2 dəfə əməliyyat olunmuşam”.

Hakim Mahmud Ağalarov Sümbülə xanımın münasibətini məhkəməyə qarşı süründürməçilik kimi qiymətləndirib və növbəti prosesdən şahidlərin dindirilməsinə başlayacağını qeyd edib.

Mahmud Ağalarov Sümbülə xanıma cinayət işinin materialları ilə tanış olmaq üçün yenidən şərait yaradacağını da söz verib.

Növbəti məhkəmə prosesi may ayının 2-nə kimi təxirə salınıb.

***Azər İsrafilov***

# Qüdrət Şükürovun iki qalmaqalla sarsılan qüdrəti...

## Sabiqlərin izi ilə: 6 il öncə vəzifəsindən qovulan mini-oliqarx "izini" necə itirib?

***”Unikal” qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Bakı Lifttəmir İstehsalat Birliyinin sabiq rəhbəri Qüdrət Şükürovdur.***

Haqqında yerli mediada ”mini-oliqarx” kimi bəhs olunan sabiq baş liftçi vəzifədə olarkən 550 manat maaş alıb. Lakin bu maaşın müqabilində ümumi dəyəri on milyonlarca manatla ölçülən mənzillərə, villalara, avtomobillərə sahiblənib. Məsələn, Bakının ən bahalı yaşayış binalarından sayılan ”Gümüş plaza”da hər birinin qiyməti 2 milyon 500 min dollar olan 2 ədəd 5 otaqlı mənzil alıb. Həmin binada yalnız ona və yaxınlarına xidmət edən Yaponiya istehsalı olan, qiyməti 400 min dolları aşan lift də quraşdırtdırıb. Mediada özünə yer alan bu və bənzər iddialara Qüdrət müəllim heç vaxt reaksiya verməyib. Görünür, unudub ki, susmaq... razılıq əlamətidir!



Şükürovun adı ictimaiyyətin yadında iki böyük qalmaqalla qalıb. Bunlardan biri ABŞ-ın “United Technologies Corporation” şirkətinin törəmə müəssisəsi olan “Otis Elevator Co.” tərəfindən Bakı Lifttəmir İstehsalat Birliyinə rüşvət verməsidir. 2018-ci ildə yaşanan həmin qalmaqal zamanı iddia edilirdi ki, “Otis Elevator Co.” Bakının dövlət balansında olan binalarını liftlə təchiz etmək üçün Bakı Lift-Təmir İstehsalat Birliyinin məmurlarını rüşvətlə ələ alıb. Bununla da ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozub. Belə ki, 2012-ci ildə Bakı şəhər İcra Hakimiyyəti şəhərin ictimai yaşayış binalarının yeni liftlərlə təchiz edilməsinə dair tender elan edib. “Otis Elevator Co.” bu tenderi udmaq üçün Bakı Lifttəmir İstehsalat Birliyinin rəhbərliyinə rüşvət verməyə razılaşıb. Rüşvətin verilməsi və liftlərin alınması üçün kağız üzərində subpodratçı şirkətlər və vasitəçilər üzərindən qurulmuş sxemdən istifadə olunub. İlk sxem 2012-ci ilin martında “Otis Rusiya” şirkəti tərəfindən liftlərin Bakı Lifttəmir İstehsalat Birliyinə birbaşa satışı ilə bağlı olub. Bu sövdələşmənin həcmi 1.8 milyon dollar olub və məbləğin az qala yarısı “şapka” kimi İstehsalat Birliyinin rəhbərliyinə ötürülüb. Pulları qurumun vəzifəli şəxslərinə ötürmək üçün iki subpodratçı şirkətin bank hesablarından istifadə olunub. Bildirilib ki, həmin subpodratçıların hesablarına 790 min dollar köçürülüb. Bu da müqavilənin ümumi dəyərinin 44 faizi idi. Subpodratçılara pulların köçürülməsi müvafiq sənədləşdirmə olmadan, müqavilə bağlanmadan həyata keçirilib.

2013-cü ilin fevralından 2014-cü ilin dekabrına qədər “Otis” Bakı Lifttəmir İstehsalat Birliyindən əlavə müqavilə almağa çalışıb. İstehsalat Birliyinin “yüksək vəzifəli şəxsinin” göstərişi ilə “Otis Rusiya” şirkəti dörd ayrı vasitəçi şirkət üzərindən “Lifttəmir”lə 9 ayrı müqavilə bağlayıb. Hər dəfə “Otis Rusiya” liftlər vasitəçilərə eyni qiymətə satıb, korrupsiya sövdələşməsinə əsasən həmin vasitəçilər liftləri xeyli şişirdilmiş qiymətə adıçəkilən İstehsalat Birliyinə satıblar. Arada olan fərq Birliyin rəhbərliyinin hesablarına keçirilib.

Bununla bağlı xəbərlərdə “Lifttəmir”in rəhbəri Qüdrət Şükürovun bəhs edilən rüşvətlə İstanbulun elit yaşayış komplekslərindən birində 4 mənzil aldığı vurğulanırdı.

Bundan başqa, mini-oliqarx Şükürovun keçmiş qudası Rafael Əsgərov da onun korrupsiya əməlləri barədə faktları KİV-lərə ötürmüş, habelə müxtəlif dövlət orqanlarına yazmışdı. O bildirirdi ki, 2013-cü ilin aprelində Q.Şükürovun təklifi ilə birlikdə Moskvaya gediblər. Həmin səfərdə Q.Şükürov içki məclisindən sonra Moskvada yaşayan bir erməni ilə əlaqə saxlayıb. Həmin erməni Vardan Avakyan olub. “OTİS” lift zavodunun rəhbərliyində təmsil olunan V.Avakyana Q.Şükürov özünü qeyri-azərbaycanlı kimi təqdim etməklə onunla görüşmək istədiyini deyib. Növbəti gün isə onunla görüşə gedib. R.Əsgərli yazıb ki, ermənilərin işğal etdiyi Qubadlı rayonundandır və həmin vaxt qudası ilə görüşə getməkdən imtina edib. Həmin görüşdən sonrakı günlərdə qudalar Moskvadan İstanbula uçublar. Q.Şükürov qudasına deyib ki, “OTİS” zavodu ilə müqavilə bağlayıb. İstanbulda olarkən qudalar ən bahalı yaşayış massivlərindən birinə - “Qoru-Floriya”ya gediblər. Orada Q.Şükürov hər birinin qiyməti 850 min dollar olan iki 4 otaqlı tam təmirli, içində bahalı mebelləri olan mənzil alıb. Mənzillərə görə ödənilən 1 milyon 700 min pulu “OTİS”in işçisi Andrey adlı şəxs “Qoru-Floriya”ya köçürüb! Sitat: “Bu mənim gözlərim qarşısında baş verdi. Mən ümumi söhbətlərdən başa düşdüm ki, həmin pul ”otkat”dır”.

Qüdrət Şükürovla bağlı ikinci qalmaqal isə onun işdən çıxarılması ilə nəticələndi. Söhbət sabiq ”baş liftçi”nin öz qızına - bloqqer qızı Aysel Şükürovaya 400 min manatlıq toy təşkil etməsindən gedir. Bu, bardağı daşıran son damla oldu və mini-oliqarx vəzifəsindən kənarlaşdırıldı. Halbuki həmin vaxt Şükürovun cinayət məsuliyyətinə cəlb ediləbiləcəyinə dair ehtimallar səsləndirilirdi. “Lifttəmir” İstehsalat Birliyindəki mənimsəmələrlə bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanması, ayrıca Qüdrət Şükürova qarşı da Cinayət Məcəlləsinin 193-1 (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə ittiham irəli sürülməsi barədə xəbərlər bu ehtimalı qüvvətləndirirdi. Üstəlik, “Lifttəmir” İstehsalat Birliyinin nəzdində fəaliyyət göstərən “Baklift-1” və “Baklift-2”nin rəhbərləri həbs edilmişdi. Lakin sonradan sabiq ”baş liftçi” həbs təhlükəsindən sovuşa bildi.

2018-ci ildə postu ilə vidalaşan Qüdrət Şükürovun indi nə işlə məşğul olduğu bəlli deyil.

İddialar bu yöndədir ki, sabiq baş liftçi varidatının əhəmiyyətli hissəsini itirib və bir neçə il öncəyədək onun haqqında ölkədən çıxış yasağı qüvvədə olub.

Bəzi iddialar isə barəsindəki bu yasağın aradan qaldırılmasının ardınca Şükürovun ölkəni tərk etdiyi yönündədir. Dəqiq bilinən bircə odur ki, “Lifttəmir” İstehsalat Birliyi kimi sıradan bir quruma rəhbərlik etdiyi dövrdə anormal şəkildə varlanan Qüdrət müəllimin uzun müddət cəmiyyətdən gizlətməyi bacardığı maddi qüdrəti iki böyük qalmaqalın - ABŞ şirkətinin törəmə müəssisəsindən rüşvət almaq və qızına yarım milyonluq toy etmək - ardından tamamilə sarsıldı. Necə deyərlər, ”kələklə gələn küləklə gedər...”

***Toğrul Əliyev***

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:22 PM Page 12



## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kağızın təkrar emalı ekologiyaya böyük töhvədir



***Artıq illərdir ki, dünyanın əksər inkişaf etmiş ölkələrində zibilləri yandırıb, ətraf mühitə ziyan vurmaqdansa, onların çeşidlənərək təkrar istehsalına üstünlük verilir. Son illər Azərbaycanda da karton məhsullarının toplanış məntəqələri fəaliyyət göstərir. Yəqin ki, çoxunuz məişət tullantıları qablarından karton, kağız toplayan şəxslərə rast gəlmisiz. Bəs görəsən, kağız tullantıların təkrar emalı necə aparılır?***

Elə bu məqsədlə Azərbaycan Kağız və Karton İstehsalı Kombinatının nəzdində fəaliyyət göstərən Kağızın Təkrar Emalı Fabrikində kağız tullantıların emalı ilə tanış olduq.

Azərbaycan Kağız və Karton İstehsalı Kombinatının nəzdində fəaliyyət göstərən Kağızın Təkrar Emalı Fabrikinin müdiri Əli Məmmədov "Unikal"a müsahibəsində bildirib ki, proses kağız tullantıların toplanış məntəqələrindən fabrikə daxil olmaqla başlayır. Qəbul olunan tullantıların içərisində yad cisimlər olduğundan hissə-hissə təmizlənir. Daha sonra kağız tullantılar suda həll olunur. Bundan sonra "xəmirhazırlanma" prosesinə başlanılır.

Həmsöhbətimiz deyib ki, fabrik bir neçə hissədən ibarətdir. Qəbul məntəqəsində əldə olunan tullantılar təmizləndikdən sonrakı mərhələdə su ilə qarışdırılır və xəmir formasına salınır. Bu proses bitdikdən sonra makina hissəsinə ötürülür. Sulu halda makina hissəsində kağız müvafiq formaya uyğun hazırlanır, buxarda qurudulduqdan sonra rulonlanaraq anbarlara yerləşdirilir.Onun sözlərinə görə, Azərbaycanda kağız tullantıların bir tonu 100-157 manata qəbul edilir. O, nə qədər kağız tullantı olsa qəbul etdiklərini söyləyib. Bildirib ki, fabrikin illik istehsal gücü 50 000 tondur.

Amma istehsalla iş bitmir. Belə ki, kağız istehsal edildikdən sonra laborator analizlərdən də keçirilir. Burada məhsulun səthinin əzilməyə qarşı müqaviməti, standartlara uyğun olub-olmadığı öyrənilir. İstehsal olunan kağızın tərkibində nə qədər suyun olduğu da analiz edilir.

Əli Məmmədov fabrikin ekoloji baxımdan böyük əhəmiyyət kəsb etdiyini də vurğulayıb. Onun sözlərinə görə, təkrar emal ildə 850 min ağacın kəsilməsinin, 620 mln m3 karbon qazının ətrafa atılmasının qarşısını alır. Bununla 2 mln m3 suya qənaət edilir. 120000 m3 poliqon sahənin tutulmasının, 87 min ton maye yanacağın qarşısı təkrar emal sayəsində alınır".

O, bildirib ki, ölkəmizdə adambaşına formalaşan gündəlik tullantı çəkisi 0,97 kiloqramdır. Bu il ərzində 350 kq tullantı deməkdir. Azərbaycanda tullantıların təkrar emal faizi,14,4 faizdir. Fabrik rəhbəri onu da əlavə edib ki, müəssisənin 10 illik fəaliyyəti nəticəsində təxminən 8.5 milyon ağacın qorunmasına töhfə verilib.

Qeyd edək ki, bu gün dünyada kağız tullantılar ümumilikdə zibil tullantıların 26 fazini təşkil edir. Tullantı kağızının təkrar emalına görə ən yüksək göstəricilər ABŞ, Kanada, Almaniya, Fransa, Çin, Hindistan və Avstraliyanın payına düşür. Məlumatlara görə, 1 ton kağız tullantısını yenidən istehlak etmək 17 ağacın xilas olmasıdır. Bu, həm də meşələrin məhvinin qarşısının alınması deməkdir. Kağızların yenidən istehlakı həm də hər ailəyə 6 ağacın düşməsi deməkdir. Əks halda, hər ailəyə düşən ağac sayında da azalma olacaq. Araşdırmalara görə, bu gün ofisdə kağız tullantıların yalnız 7 faizi təkrar istehsal olunur. Təkrar istehsal isə həm də atmosferə atılan tullantıların azalması deməkdir. Bir kağızı təkrar emal etmək yalnız 5 faiz çirklənməyə səbəb olur. Qəzetlərin təkcə bazar günü nömrələrinin çıxarılması üçün həftəlik olaraq 500 min ağac qırılır. Əgər biz bütün kağız tullantılarımızı təkrar istehlak etsək, təxminən 250 000 000 ağacı xilas etmiş olarıq. Kağız istehsalı həm də kifayət qədər su israfı deməkdir. Təkcə bir A4 kağızının istehsalında 10 litr su istifadə olunur. Bir kiloqram kağızın hazırlanması üçün 324 litr su istifadə olunur. Kağız istehsalı istixana qazlarının tullantısına görə dünyada 4-cü hesab edilir. İllik olaraq kağız istehsalı üçün 4 milyard ağac kəsilir. Statistikaya görə 2001-2019-cu illərdə ümumi olaraq 386 milyon hektar meşə sahəsi yoxa çıxıb. Bu isə 2000-ci ildən ağacların sahəsinin illik olaraq təxminən 10 faiz azalması deməkdir. Kağız istehsalı istixana qazlarının tullantısına görə dünyada 4-cü hesab edilir. Statistikaya görə, illik olaraq hər evdən 13 min kağız tullantısı olur.

Məlumat üçün onu da bildirək ki, Azərbaycan ekoloji durumun yaxşılaşdırılmasına öz töhvəsini verməkdədir. Hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi 29-cu "Tərəflərin Konfransı (COP)" bu dəfə noyabrın 11-dən 24-dək Bakıda keçiriləcək. COP29-un bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir. COP tədbirlərinin məqsədi, Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının (CO2) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaq olur. COP29 Konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək üçün konkret addımlar atmaq üçün bir fürsətdir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Baş Prokurorluqdan Nəsib Quliyevin intiharı ilə bağlı açıqlama

***Xəbər verildiyi kimi, 1951-ci il təvəllüdlü Nəsib Quliyevin aprelin 24-də yaşadığı evdə odlu silahdan atəş açaraq intihar etməsi faktı ilə bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatırma) maddəsi ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

"Təəssüflə bildiririk, baş vermiş hadisə ilə əlaqədar bəzi sosial media səhifələri (istifadəçiləri) və xəbər portalları tərəfindən rəsmi qurumla dəqiqləşdirmə aparılmadan, istintaq sirrinə dair tələblər pozularaq cinayət işi üzrə hadisənin motivi, baş vermə səbəbi və mexanizmi, zərərçəkmiş şəxs barədə şəxsi və ailə sirrini təşkil edən məlumatlar, o cümlədən yayılması qanunvericiliklə yolverilməz hesab olunan və qadağan edilmiş digər informasiyalar ictimailəşdirilib.

Qeyd edilən hallar jurnalist etikasının pozulmasına səbəb olmaqla yanaşı, qanunvericiliklə nəzərdə tutulan qaydada inzibati və cinayət məsuliyyətinə səbəb olur.

Nəzərə alınmalıdır ki, Cinayət Prosessual Məcəlləsinin 222.2-ci maddəsinə əsasən, ibtidai araşdırma məlumatları jurnalistlər tərəfindən yalnız müvafiq olaraq müstəntiqin, təhqiqatçının, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi ilə ibtidai araşdırmanın maraqlarına zidd olmayan və cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həddə yayıla bilər.

Odur ki, media subyektləri və sosial şəbəkə istifadəçilərindən qeyd olunan məsələyə həssaslıq nümayiş etdirməklə qanunvericiliyin tələblərinə riayət etməyi, dəqiqləşdirilməmiş və təhrif olunmuş məlumatların ictimailəşdirilməsindən çəkinməyi xahiş edirik", - məlumatda qeyd olunub.

## Qarabağ müharibəsi əlili nazirliyi məhkəməyə verdi



***II qrup Qarabağ müharibəsi əlili Rəhman Həsən oğlu Əzizzadə pensiya təminatı ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyindəki "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabiliyasiya Agentliyi" Publik Hüquqi Şəxsi məhkəməyə verib.***

"Unikal"ın məlumatına görə, məhkəmə prosesinə Bakı İnzibati Məhkəməsinin hakimi Bəhlul Cəlalov sədrlik edəcək.

Qeyd edək ki, Əzizzadə Rəhman Həsən oğlu əslən Lənkəranın Daşdalıqlar kəndindəndir.

***Azər İsrafilov***

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:22 PM Page 13



# Nazir müavini Qırğızıstanın rəqəmsal inkişaf naziri ilə görüşdü



***Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov Azərbaycanda rəsmi səfərdə olan Qırğız Respublikasının rəqəmsal inkişaf naziri Nuriya Kutnayeva ilə görüşüb.***

”Unikal” xəbər verir ki, nazir müavini Samir Məmmədov Azərbaycan və Qırğız Respublikası arasında rəqəmsal inkişaf təşəbbüslərinin irəliləyişində ikitərəfli əməkdaşlığın vacibliyini vurğulayıb.

Qırğız Respublikasının rəqəmsal inkişaf naziri Nuriya Kutnayeva iki ölkə arasında rəqəmsal transformasiya istiqamətində bilik və təcrübə mübadiləsinin önəmini xüsusi qeyd edib.

Görüş çərçivəsində xanım Nuriya Kutnayevaya Azərbaycanda rəqəmsallaşma, innovasiyanın təşviqi, İKT üzrə kadr potensialının artırılması, eləcə də mövcud informasiya sistemləri və bulud həllərinin tətbiqi sahəsində atılan addımlar barədə geniş məlumat verilib.

# Azərbaycanda balıq ovu qadağan edilir - Bu tarixdən



***Balıqların kürütökmə dövrü ilə əlaqədar may ayının 1-dən Azərbaycanda bütün su hövzələrində balıq ovuna moratorium qüvvəyə minir.***

”Unikal” xəbər verir ki, bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib.

Onun sözlərinə görə, bu proses sentyabrın 1-dək davam edəcək. Xidmət rəsmisi balıq ovu ilə məşğul olan bütün fiziki və hüquqi şəxsləri qaydalara əməl etməyə, qadağan olunmuş vaxtlarda, qadağan olunmuş alətlərlə balıq ovlamaqdan çəkinməyə çağırıb.

“Sənaye balıq ovu ilə məşğul olan fiziki və hüquqi şəxslər bütün təbii su hövzələrindən balıq ovu alətlərinin kənarlaşdırılmasını may ayının 1-dək təmin etməlidir, əks halda ov alətlərinin su hövzələrində saxlanılması qanun pozuntusu hesab ediləcək və həmin şəxslər barəsində qanunamüvafiq qaydada intizam tədbirləri tətbiq olunacaq. Balıq və digər su bioresurslarının ov qaydalarının pozulmasına, o cümlədən qanunsuz ovlanmasına görə təqsirkar şəxslər müvafiq olaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar”, - deyə Xidmət rəsmisi vurğulayıb.

A.Babayevanın sözlərinə görə, qanunsuz balıq ovunun qarşısının alınması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik və Bioloji Müxtəlifliyin Qorunması Xidmətlərinin, Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən ölkənin daxili su hövzələrində mütəmadi nəzarət tədbirləri həyata keçirilir və qanunsuz balıq ovu ilə məşğul olan şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

# Nazirlik Kamandar Nəsibovu məhkəməyə verdi

***Tanınmış vəkil Kamandar Nəsibov barədə Bakı İnzibati Məhkəməsinə şikayət daxil olub.***

“Unikal”ın məlumatına görə, ƏƏSMN-nin tabeliyində DSMF Publik Hüquqi Şəxsin Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının Nəsibov Kamandar Rəfi oğlu barədə şikayətinə hakim Aysev Almazova sədrlik edəcək.

Qeyd edək ki, 31 ildən çox iş stajı olan tanınmış vəkil Kamandar Nəsibov və Partnyorları Vəkil Bürosunun sədridir.

*Azər İsrafilov*

# Magistraturaya qəbul imtahanı iştirakçılarının nəzərinə

***Dövlət İmtahan Mərkəzi tərəfindən 28 aprel 2024-cü il tarixində ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (II cəhd) keçiriləcək.***

”Unikal” xəbər verir ki, imtahan respublikanın 7 şəhər və rayonunda - Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Abşeron, Mingəçevir və Lənkəranda, ümumilikdə 78 binada təşkil olunacaq. İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Bildiyiniz kimi, imtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanacaq. Mətnin səsləndirilməsinə hazırlıq və binada sakitliyin təmin olunması ilə əlaqədar imtahanın başlanmasına 15 dəqiqə qalmış hər kəs zalda olmalıdır.



İmtahanın müddəti 3 saat 30 dəqiqədir. İmtahanın başlandığı andan 3 saat sonra test tapşırıqlarının cavablandırılması üçün ayrılan vaxt başa çatır və cavab kartları zal nəzarətçisi tərəfindən yığılır. Bundan sonra iştirakçılara yazı işi (esse) vərəqləri paylanılır. Esselərin yazılmasına 30 dəqiqə vaxt verilir.

İmtahan nəticələri 2 mərhələdə elan olunacaq. İmtahandan sonrakı 2-3 gün ərzində qapalı və cavabları kodlaşdırılan açıq tipli tapşırıqların nəticələri elan olunacaq. Yekun imtahan balı isə esse tapşırıqları yoxlanıldıqdan sonra təqdim olunacaq. İmtahan iştirakçılarının nəticələrlə bağlı apellyasiya müraciətlərinə yekun bal elan olunduqdan sonra baxılacaq və bu zaman yalnız tapşırıqların məzmunu və yazı işi ilə bağlı müraciətlər qəbul olunacaq.

İmtahan iştirakçılarının nəzərinə çatdırırıq ki, cavab kartındakı məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də optik qurğuların tələblərinə əsasən, cavab kartını qara və ya tünd göy rəngdə yazan mürəkkəb axıtmayan diyircəkli qələmlə, yaxud sadə karandaşla doldurmaq lazımdır. Cavablar üçün nəzərdə tutulmuş dairələrin içi göstərilən növ qələmlərlə və ya karandaşla tam qaralanmalıdır. Təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) baxılmayacaq. Bununla bağlı tövsiyə olunur ki, cavab kartında cavabları tam əmin olduqdan sonra qeyd edin və ya cavab kartında imtahan bitənədək hər hansı düzəliş etmək imkanının olması üçün dairələri karandaşla qaralayın.

Bir daha xatırladırıq ki, kartı zədələmək v? cırmaq olmaz. İmtahan nəticələri ilə əlaqədar apellyasiya müraciətlərinə baxılarkən göstərilən hallarla bağlı hər hansı müraciət qəbul edilməyəcək.

İmtahan iştirakçıları “Yaddaş kitabçası” ilə buradan tanış ola bilərlər.

İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

Məlumat üçün qeyd edək ki, ərizələrin qəbulu internet vasitəsilə martın 28?dən aprelin 8-dək aparılıb. İmtahanda iştirak etmək üçün 19716 bakalavr ərizə təqdim edib. Onlardan 18420 nəfər Azərbaycan bölməsi, 1296 nəfəri rus bölməsi üzrə imtahan verəcək. Bakalavrlardan 12454-ü cari ilin, 7262-si isə əvvəlki illərin məzunlarıdır, 45 nəfər xarici ölkə vətəndaşıdır.

Qəbul imtahanı Bakıda 56, Sumqayıtda 5, Abşeronda 4, Gəncədə 6, Naxçıvanda 2, Mingəçevirdə 3, Lənkəranda 2 binada təşkil olunacaq. Bakıda 14573, Naxçıvanda 536, Gəncədə 1310, Sumqayıtda 1358, Abşeronda 964, Mingəçevirdə 581, Lənkəranda 394 bakalavrın imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunmasına 78 ümumi rəhbər, 218 imtahan rəhbəri, 1799 nəzarətçi-müəllim, 264 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunacaq.

İmtahanda 11 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) bakalavrlar da iştirak edəcək. Bu bakalavrların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş bakalavrlar imtahanda iştirak etmək üçün aprelin 22-dən etibarən DİM-in internet saytına daxil olub “Şəxsi kabinet”in istifadəçi adı və parolundan istifadə etməklə “İmtahana buraxılış vərəqəsi”ni çap edirlər. Burada iştirakçının imtahan verəcəyi şəhər, bina və digər məlumatlar qeyd olunur.

Bakalavrlar imtahana gələrkən aşağıda göstərilən sənədləri mütləq özləri ilə gətirməlidirlər:

- Şəxsiyyəti təsdiqləyən sənədin əslini;
- “İmtahana buraxılış vərəqəsi”ni.

Göstərilən sənədləri arasında uyğunsuzluq aşkarlanan, yaxud həmin sənədlərdən biri olmayan şəxslər imtahana buraxılmayacaq.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri və mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binaları yoxlanılır, zallarda bakalavrların rahat imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə apreln 27-də imtahan mərkəzləri, zallar, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:23 PM Page 14



# Vətəndaşlar öz avtomobilləri ilə Laçına gedə biləcəklər




***Vətəndaşlar öz avtomobilləri ilə Laçın şəhərinə səfər edə biləcəklər.***

”Unikal” xəbər verir ki, bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Dövlət Turizm Agentliyinin birgə məlumatında bildirilir. Məlumatda deyilir ki, “Böyük Qayıdış” proqramının tərkib hissəsi olaraq Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş ərazilərə səfərlərinin istiqamətləri genişləndirilir.

27 aprel 2024-cü il tarixindən etibarən vətəndaşlar fərdi minik avtomobilləri ilə Şuşa şəhərinə və Suqovuşan qəsəbəsinə səfərlə bərabər, artıq Laçın şəhərinə də səfər edə biləcəklər. Vətəndaşlar səfər üçün icazəni 26 aprel tarixindən başlayaraq “Yolumuz Qarabağa” portalı (www.yolumuzqarabaga.az) üzərindən əldə edə bilərlər. Rəsmiləşdirilən icazələrin etibarlılıq müddəti 2 gün nəzərdə tutulub. Laçın şəhərinə səfər Füzuli rayonunun Alxanlı keçid məntəqəsindən daxil olmaqla “Zəfər Yolu” və Horadiz qəsəbəsindən keçməklə Cəbrayıl - Zəngilan - Qubadlı - Laçın marşrutu ilə mümkün olacaq.

Fərdi minik avtomobillərində səfər üçün 1 sürücü olmaqla maksimum 9 nəfərə icazə alına bilər. Fərdi minik avtomobilləri dedikdə, Azərbaycan Respublikası avtomobil dövlət qeydiyyat nişanına malik, B kateqoriyasına uyğun nəqliyyat vasitələri nəzərdə tutulur. Fərdi minik avtomobillərini idarə edən şəxslər “Yolumuz Qarabağa” portalı üzərindən səfərlə bağlı qaydalar, mina təhlükəsizliyi barədə maarifləndirici məlumatlarla tanış olmalı, həmçinin bu barədə səfər edən şəxsləri məlumatlandırmalı, mina təhlükəsizliyinə əməl etmək üçün işğaldan azad edilmiş ərazilərə daxil olduqdan və müvafiq yoxlanışdan keçdikdən sonra marşrutdan kənara çıxmamalı, yolayrıcılarında diqqətli olmalı və səfər marşrutu boyunca qaydalara əməl etməlidirlər.

Vətəndaşlar səfərdən öncə portalda yerləşdirilmiş mehmanxana və digər yerləşmə məntəqələri ilə əlaqə saxlayıb otaq sifarişlərini həyata keçirə bilərlər.

# Şəhid Ülvinin hünər dastanı



***İkinci Qarabağ savaşında 30 il düşmən əsarətində qalan Vətən torpaqların azadlığı naminə Ülvi İlham oğlu Alışov ağır döyüş meydanında şəhidlik zirvəsinə ucalanda 20 yaşında idi.***

Onun bu qısa ömür yolu xalqın qəhrəmanlıq simvoluna dönüb tarixə düşdü. Ülvi Cəlilabad rayonunun Həziabad kəndində dünyaya göz açıb. İndi bütün Azərbaycan onu özünə əziz bilir, hər yerdə, hər zaman adı qürurla, iftixarla çəkilir. Həmçinin ölümündən sonra dövlət tərəfindən layiq görüldüyü ”Füzulinin azad olunmasına görə”, ”Vətən uğrunda”, ”Döyüşdə fərqlənəməyə görə” medalları Ülvinin Vətəninə, torpağına necə bağlı olduğunu bir daha göstərir.

Uşaq yaşlarından yaxşılardan görə-görə boy atan, canına, qanına mərdlik, cəngavərlik ruhu hopan, vətənpərvər gənc ordu sıralarına böyük həvəslə yollanıb. Cəbhə bölgələrin birinə düşüb, amalı Vətən torpaqlarını göz-bəbəyi kimi qorumaq, nifrət bəslədiyi erməni faşistlərinə mübarizliklə qalib gəlmək olub. Məqsədə çatmaq üçün müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirib, təşkil olunan hərbi təlimlərdə fəal olub, çətin sınaqlardan uğurla çıxıb. Necə deyərlər, qəlbində bitib-tükənməyən Vətən sevgisi, yağıya nifrət hissi daim öyrənməyə can atıb. Həmçinin keçdiyi təlimlərdən ən yaxşı döyüş hazırlığı adına layiq olmaqla çavuş rütbəsinə yüksəlib. Beləcə, Ülvinin vicdanı, qeyrəti, cəsurluğu, çevikliyi onu əsgərlərin, zabitlərin yanında başıuca edib. Həmişə də deyib ki, Vətən torpaqlarını nəyin bahasına olursa-olsun murdar niyyətli düşmənlərin tapdağından azad etmək hər bir oğlun müqəddəs borcudur. Bu yolda canını, qanını belə fəda etməyə hazır olmalıyıq. Tapdalanmış namusumuzu, döyüşüb şəhid olan igidlərin qanını biz almalıyıq...

Nəhayət ki, Azərbaycan Ordusunun çavuşu olan Ülvi Alışoun arzuladığı vaxt gəlib. 2020-ci il sentyabrın 27-də əynində cəngavər libası,əlində silah yağı döyüşçüləri ilə ölüm-dirim mübarizəsinə atılıb. Qəhrəman döyüşçü dığalara ilk sarsıdıcı zərbəni Füzulidə vurub. Ağır müharibə meydanında Ülvi öndə olmaqla tutduğu mövqedən bir addım da olsun geri çəkilmədən vuruşub. Dəqiq atəş zərbələri nəticəsində erməni işğalçıları xeyli canlı qüvvə və hərbi texnika itkisi ilə üzləşib.

Döyüşə girdiyi gündən Ülvi göstərdiyi şücaətlərlə yadda qalıb. Sentyabrın 29-da sözün əsl mənasında tarix yazıb. Lakin amansız ölüm onu da haqlayıb. Qəfil atılan düşmən gülləsi Ülvinin böyük arzularına son qoyub. Vətən sevgisi ilə çırpınan ürəyi həmişəlik dayanıb. Müdafiəsinə qalxdığı torpaq uğrunda şəhid olub.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Kağızın Təkrar Emalı Fabrikinə mediatur təşkil olunub



***Fəaliyyəti daim ictimaiyyətə açıq olan, mütəmadi olaraq istehsal müəssisələrinə mediatur təşkil edən “Azərsun Holdinq” ənənəsinə sadiq qalaraq media mənsublarını istehsal müəssisəsinə dəvət edib.***

”Unikal” xəbər verir ki, bu dəfəki tur “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Azərbaycan Kağız və Karton İstehsalı Kombinatı nəzdində fəaliyyət göstərən Kağızın Təkrar Emalı Fabrikinə olub.

Jurnalistləri qarşılayan fabrik müdiri Əli Məmmədov kağızın təkrar emalı prosesi haqqında geniş məlumat verib. Prosesin bir neçə mərhələdən ibarət olduğunu qeyd edən mütəxəssis bildirib ki, qəbul olunan tullantılar çeşidləndikdən sonra su ilə qarışdırılaraq xəmir alınır. Növbəti mərhələdə isə alınan xəmir kütləsi aparatlarda kağız halına gətirilir və buxarda qurudulduqdan sonra rulonlanır.

Fabrik müdiri istehsal prosesində istifadə edilən bütün avadanlıqların müasir texnoloji standartlara uyğun olduğunu və xaricdən gətirildiyini qeyd edib.

Müəssisənin illik istehsal gücünün 50 000 ton olduğunu qeyd edən Əli bəy bildirib ki, bunun sayəsində ildə 850 min ağacın kəsilməsinin qarşısı alınır. Belə ki, 1 ton tullantı kağızın təkrar emalı 17 ağacın qorunmasını təmin edir.

AKKİK-ə təşkil edilən mediatur çərçivəsində fabrikdə çalışan mütəxəssislər jurnalistləri proseslə əyani tanış edərək, onların suallarını cavablandırıblar.

Qeyd edək ki, 10 illik fəaliyyəti dövründə təxminən 8.5 milyon ağacın qorunmasını təmin edən bu fabrik “Azərsun Holdinq”in həyata keçirdiyi ən böyük Korporativ Sosial Məsuliyyət layihələrindən biridir. Fabrik eyni zamanda tullantıların idarə edilməsinə dair bir çox ekoloji maarifləndirmə layihələri icra edir.

# Orduda komanda-qərargah təlimləri keçirilir



***2024-cü ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunda hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanması məqsədilə keçirilən təlimlər davam etdirilir.***

”Unikal” xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Təlimlərə cəlb edilən hərbi hissələrin bölmələri həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək cəmləşmə rayonlarında tərtibləniblər.

Müdafiə Nazirliyinin rəhbər heyəti ümumqoşun təlim mərkəzlərində keçirilən komanda-qərargah təlimlərinin gedişatını izləyib. Səhra şəraitində açılan komanda idarəetmə məntəqəsinə gələn general-polkovnik Z.Həsənov əməliyyatların aparılması zamanı komandir və qərargah zabitlərinin xəritə üzərində qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Bildirilib ki, keçirilən təlimdə əsas diqqət komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının, qərargahların qarşılıqlı fəaliyyətinin, eləcə də onların mürəkkəb şəraitlərdə döyüş tapşırıqlarını idarəetmə qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə yönəldilib.

General-polkovnik Z.Həsənov təlimin gedişatını müsbət qiymətləndirib və döyüş hazırlığı tədbirlərinin müasir döyüş aparma üsulları nəzərə alınmaqla, daha keyfiyyətli keçirilməsi ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

# Siyəzən rayon əhalisinin statistikası

***2024-cü il yanvar ayının 1-i vəziyyətinə Siyəzən rayonu üzrə əhalinin sayı 41836 nəfər olmuşdur. Əhalinin 26724 nəfəri və ya 63,9 %-i şəhər, 15112 nəfəri və ya 36,1 %-i kənd əhalisidir. Əhalinin 20687 nəfəri və ya 49,4 faizi kişi, 21149 nəfəri və ya 50,6 faizi qadınlardır.***

2023-cü ildə doğulanlar 506 nəfər, ölənlər 262 nəfər , nikahlar 238, boşanmalar 72 olmuşdur. Əhalinin təbii artımı 244 nəfərdir.

***Kamil Xəlilov,***
***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

14_27 IYUl-QARA.qxd 4/25/2024 10:23 PM Page 15





## Rusiya və İran Təhlükəsizlik Şuraları arasında memorandum imzalandı

***İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev arasında təhlükəsizlik üzrə anlaşma memorandumu imzalanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Tasnim agentliyi məlumat yayıb.

Memoranduma əsasən, iki ölkə arasında müxtəlif strateji sahələrdə əlaqələr və əməkdaşlıq səviyyəsi yüksələcək.

***Ağarza Elçinoğlu***

## Meral Akşenerin müavini istefa verdi

***İYİ Partiyasının sədr müavini Birol Aydemir tutduğu vəzifəsindən istefa verib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "X" hesabında məlumat yayıb.

Aydemir paylaşımında, "Təəssüf ki, partiyadakı həmkarlarımla eyni yolda davam edə bilməyəcəyəm. Bu səbəbdən İYİ Partiyasından ayrılmaq qərarına gəldim", - qeyd edib.

Bildirək ki, Türkiyənin müxalif İYİ partiyasının sədri Meral Akşenerdir.

***Gülayə Mecid***

## Paşinyanla bağlı Baş Prokurorluğa hesabat təqdim edildi

***Ermənistan Baş Prokurorluğuna baş nazir Nikol Paşinyanın cinayət məsuliyyətinə cəlb edilməsi tələbi ilə hesabat təqdim edilib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Bildirilib ki, Tavuşun 4 kəndinin Azərbaycana verilməsi prosesinə başlanılması ilə əlaqədar Nikol Paşinyanın cinayət məsuliyyətinə cəlb edilməsi tələbi ilə Ermənistan Baş Prokurorluğuna Cinayət Məcəlləsinin 418 və 421-ci maddələri (Dövlətə xəyanət və Zorakılıq tətbiq etməklə Ermənistan Respublikasının ərazisinin bir hissəsini təcrid etmə) ilə cinayət işi üzrə protokol təqdim edilib.

Hesabatla vəkil Ara Zohrabyan və ehtiyatda olan ordu polkovniki Hayk Nahapetyan çıxış ediblər.

Hesabatda xahiş olunur ki, cinayət işinin başlanması, ibtidai istintaqın aparılması və Nikol Paşinyanın cinayət məsuliyyətinə cəlb edilməsi məsələsinin həlli barədə göstəriş verilsin.

Bu maddələrə görə, müttəhim 10 ildən 15 ilə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Ağarza Elçinoğlu***

## Ermənistan Təbriz şəhərində baş konsulluq açacaq

***Ermənistan İranın Təbriz şəhərində baş konsulluq açacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan hökumətinin bu gün keçirilən iclasında qərar qəbul edilib.

2022-ci ildə Ermənistan Respublikasının baş naziri və İran İslam Respublikasının prezidenti arasında Ermənistan Respublikası və İran İslam Respublikasının ticarət dövriyyəsinin bir, sonra isə 3 milyard dollara çatdırılması barədə razılıq əldə olunub.

***Ağarza Elçinoğlu***

# Kuleba Ukraynadan qaçanları satqın adlandırdı

***Ukraynanın xarici işlər naziri Dmitri Kuleba xaricdə hərbi xidmətə cəlb olunanların hamısını satqın adlandırıb.***

"Unikal" xəbər verir ki, müvafiq məlumat Strana.ua nəşri tərəfindən dərc olunub.

"Xarici işlər naziri Dmitri Kulebanın xaricdə hərbi xidmətə cəlb olunan bütün ukraynalıları satqın adlandırdığı şər-



hi bununla bağlı göstəricidir", - KİV qeyd edib.

Nazirin sözlərinə görə, Rusiya ilə müharibə başlayanda da (24.02. 2022) başqa ölkələrdə yaşayıb-işləyənlər Ukraynaya qayıtmadı. Jurnalistlərin fikrincə, Kulebanın sözləri ukraynalılara dövlətin onları tərk etdiyini hiss etdirə bilər, bu o deməkdir ki, onlar başqa ölkənin vətəndaşlığını almalıdırlar, eyni zamanda vətənləri ilə bütün əlaqələri kəsməlidirlər.

***Gülayə Mecid***

# Şoyqunun müavininin əmlakına həbs qoyuldu

***Moskva məhkəməsi müdafiə nazirinin müavini Timur İvanov və onun qohumlarının daşınmaz əmlakına, aktivlərinə və bank hesablarına qarşı müvəqqəti tədbirlər görüb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS agentliyi məlumat yayıb.

"Ona və həyat yoldaşına, habelə keçmiş arvadına və övladlığa götürülmüş 5 uşağına qeydiyyatda olan hər şey, İvanovun sonradan təqsirli bilindiyi təqdirdə, bütün bu əmlaka paytaxt məhkəməsi tərəfindən müvəqqəti tədbirlər görülməsi üçün artıq həbs qoyulub", - qeyd olunub.

Xatırladaq ki, Moskvanın Basmannı məhkəməsi çərşənbə günü İvanovu həbs edib.

***Ağarza Elçinoğlu***



# NATO Rusiyaya qarşı təlimlər keçirir

***NATO faktiki olaraq Rusiyaya qarşı Avropada hərbi təlimlər keçirir.***

"Unikal" xəbər verir ki, ABŞ-nin Avropadakı quru qoşunlarının komandanı, general Darryl Uilyams "New-York Times" qəzetinə müsahibəsində bildirib.

"Bu il biz əslində ruslara qarşı təlimlər keçiririk. Biz potensial rəqibimizlə mübarizə aparırıq. NATO qüvvələrinin Soyuq Müharibədən bəri ən böyük nümayişi olacağı gözlə-



nilən təlimin bir hissəsidir və bu, Rusiya prezidenti Vladimir Putinə güclü siqnal göndərmək məqsədi daşıyır. Onun ambisiyalarının Ukraynadan kənara çıxmasına imkan verilməməlidir", - deyə Uilyams vurğulayıb.

Daha əvvəl Rusiya Müdafiə Nazirliyinin rəhbəri Sergey Şoyqu NATO-nun təlimləri barədə danışıb. Nazir izah edib ki, "Ukrayna Təhlükəsizliyə Yardım Qrupu"nun qərargahı Almaniyada ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Avropa Komandanlığının bazasında yerləşdiriləcək.

***Gülayə Mecid***

# BMT ilin əvvəlindən ölən miqrantların sayını açıqladı

***Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) 2024-cü ilin əvvəlindən bəri Mərkəzi Aralıq dənizində ölən qeyri-qanuni miqrantların sayını açıqlayıb.***

"Unikal" xəbər verir ki, hesabata görə son 4 ayda Mərkəzi Aralıq dənizində 510 nəfər qeyri-qanuni miqrant həyatını itirib.

***Zərifə Nağıyeva***



# Türkiyədə İŞİD üzvləri saxlanıldı




***Türkiyənin 7 vilayətdə İŞİD terror təşkilatına qarşı "Bozdoğan-29" əməliyyatları keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya məlumat verib. Onun sözlərinə görə, keçirilən əməliyyatlarında 23 şübhəli saxlanılıb.

***Gülayə Mecid***

14_27 IYUI-QARA.qxd 4/25/2024 10:24 PM Page 16



# Şəhid Pəncəli Teymurovun xatirəsinə həsr olunmuş şahmat turniri

***Astara Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Aprel döyüşlərinin qəhrəmanı, şəhid Pəncəli Teymurovun xatirəsinə həsr olunmuş şahmat üzrə məktəbli oğlan və qızlar arasında keçirilən rayon turnirində 16 məktəb komandasını təmsil edən 48 (16 qız və 32 oğlan) nəfər şagird şahmatçı qələbə uğrunda mübarizə aparıb.***



Gərgin və maraqlı keçən yarışın birincisi Mirzə Ələkbər Sabir adına Astara şəhər 1 saylı tam orta məktəbin komandası olub. İkinci yerə Astara rayon UGİŞM-1, üçüncü yerə isə Ziya Bünyadov adına Astara şəhər 2 saylı tam orta məktəb komandaları çıxıblar.

Turnirin qalib şahmatçıları Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin diplomlarına, medallarına layiq görülüblər.

Məlumat üçün bildirək ki, yarışın baş hakimi ,Beynəlxalq dərəcəli hakim ,Astara rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru Azər İbrahimov olub.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Azarkeşlərin boykotu "Neftçi"nin xeyrinə olmayacaq" - Yuri Matias

***"Qarabağ"a qarşı oynamaq həmişə çətin olur. Hamı bilir ki, çox yaxşı komandadır. Oyunçuları keyfiyyətlidir, hər oyun bunu göstərirlər. Azarkeşlərimizdən üzr istəyirəm. Onlar bizdən hər oyun qələbə gözləyirlər, əsasən də derbi oyunlarında. Ancaq biz onları sevindirə bilmirik. Düşünürəm ki, biz oyunçular əlimizdən gələni etdik, amma bu, qələbə qazanmağa kifayət etmədi".***



QOL.az xəbər verir ki, bu sözləri "Neftçi"nin futbolçusu Yuri Matias Azərbaycan kubokunun yarımfinalında "Qarabağ"a 1:4 hesabı ilə (ilk matç 0:4) uduzaraq mübarizəni dayandırdıqları cavab görüşündən sonra jurnalistlərə açıqlamasında deyib.

O, "Qarabağ"ın "Neftçi"yə qarşı əsas heyətlə oynadığını söyləyib: "Əlbəttə, bu onun göstəricisidir ki, onlar "Neftçi"yə hörmətlə yanaşırlar. "Neftçi" böyük, tarixi klubdur. Düşünürəm ki, buna görə "Neftçi"yə hörmətlə yanaşıb əsas heyətlə oynayırlar. Düzü, bu, məni təəccübləndirmədi. Mən gözləyirdim ki, onlar əsas 11-liklə oynayacaqlar. Derbi oyununda yenidən məğlub olmaq üzücüdür. Azarkeşlər də çox üzülürlər ki, onların istəklərini yerinə yetirə bilmirik".

"Neftçi"nin əvvəlki kimi uğurlu çıxış etməsi üçün nə lazımdır" sualına braziliyalı belə cavab verib: "Əvvəllər çalışırdım ki, hər çempionatın öndə gedən komandalarını izləyim. Ona görə Azərbaycanda oynamadığım dövrdə belə "Neftçi"ni hər zaman qazanan və uğurlu klub kimi görmüşəm. Artıq bir ilə yaxındır burdayam. O adam deyiləm ki, deyim, nəyi dəyişmək lazımdır, nə çatışmır. Çünki vəziyyəti tam dərk etmək üçüb daha uzun müddət lazımdır".

O, oyunda aldığı zədəsi haqda da söz açıb: "Höccət mənim ayağımın üstünə çıxdı, ona görə ayağım burxuldu. Bundan sonra hiss elədim ki, ağrı var. Bazar günü də bizim vacib oyunum gözləyir. Düşündüm ki, əvəz olunmağım daha uyğun olar".

Y.Matias "Neftçi" və "Qarabağ" klublarının fərqindən danışıb: "Deyərdim ki, "Neftçi"də sabitlik çatışmır. Məncə, sabit oynasaq, nəticələrimiz, oyunumuz daha yaxşı olar. "Qarabağ"ın oyunu haqda danışsaq, hamı razılaşar ki, o, illərin komandasıdır. Avropada böyük rəqiblərə qarşı oynayırlar, təcrübə yığırlar. Düşünürəm ki, bizdə stabillik olsa, biz də o nəticəni qazana bilərik".

Matias Rumıniya mətbuata verdiyi müsahibənin Azərbaycanda yayılmasından da danışıb və fikrinin düz başa düşülmədiyini söyləyib: "Son bir aydır mənim adım Rumıniya mətbuatında, "ÇFR Kluj"la və digər klublarla çox hallanır. Bu, normaldır. Çünki mən o klubun uğurlu oyunçularından olmuşam. Orda məni tanıyır, xatırlayırlar, çünki çempion olmuşam, yaxşı uğurlar qazanmışam. Ona görə onların məni xatırlamaları normaldır. Amma mənə sual verilmişdir ki, "ÇFR Kluj"a qayıradımmı? Mən da cavab verdim ki, əlbəttə, qayıdardım, çünki orda məni yaxşı qarşılayıblar, yaxşı günlər keçirmişəm. Ona görə də dedim ki, mən qapımı həmişə açıq saxlayıram. Amma eyni şey "Neftçi"yə də aiddir. Haçansa "Neftçi"dən çıxıb getsəm, mənə eyni sualı versələr, mən eyni cavabı verərəm ki, əlbəttə, imkanım olsa qayıdaram".

29 yaşlı müdafiəçi "Neftçi" azarkeşlərinin komandanın oyunlarını stadionda boykot etmələri haqda da danışıb: "Sevindirici haldır ki, bura gəldiyim ilk günlərdən "Neftçi" azarkeşləri məni yaxşı qarşıladılar. Onların dəstəklərinə doğrudan da, ehtiyacımız var. Çünki onlar həmişə bizim 12-ci oyunçumuz olublar. Çalışmışam həmişə səmimi olum, bu suala da səmimi cavab verəcəm. Elədikləri boykot, düşünürəm ki, "Neftçi"nin xeyrinə olmayacaq. Azarkeş həmişə kluba kömək, dəstək olmalıdır. Klubun adı həmişə oyunçulardan üstündür. Ona görə onlar klubu dəstəkləməyə davam etməlidirlər. Əlbəttə, onlarsız oyunlarımız çətin gedir. Biz fanat üçün darıxmışıq. Düşünürəm ki, onlar da bizi stadionlarda dəstəkləmək üçün darıxıblar. Qarşıdakı oyunlarımız vacibdir. Ümid edirəm ki, azarkeş gəlib bizi stadionda dəstəkləyəcəklər".

Y. Matias "Neftçi"nin Azərbaycan çempionatını turnir cədvəlində ikinci yerdə bitirməsinin mümkün olduğunu qeyd edib: "Hazırda birinci yer artıq bəllidir. Ona görə məqsədimiz mövsümü yalnız ikinci yerdə bitirməkdir. İkinci yer bizim üçün uğur sayılar. Buna nail olmağımız da mümkündür. Hər şey öz əlimizdədir. Oynayacağımız rəqiblər də bizimlə mübarizə aparırlar. Həmin oyunlarda qələbə qazansaq, yarışı ikinci yerdə bitirmiş olarıq".

# "Qarabağ" və "Zirə" ikinci dəfə finalda üz-üzə gələcək

***Azərbaycan Kubokunun 2023-2024-cü illər mövsümündə finala yüksələn "Qarabağ" və "Zirə" ikinci dəfə həlledici görüşdə üz-üzə gələcək.***




"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, bu komandalar 2021-2022-ci illər mövsümündə də finalda qarşılaşıblar.

Yarımfinalı adlayan bu iki klub kubokun finalında bir dəfədən artıq qarşılaşacaq 6-cı cütdür. İndiyədək 5 duel yenidən finalda təkrarlanıb.

Kubok mövsümünün son matçında "Neftçi" - "Qarabağ" cütü üç dəfə qeydə alınıb. "Neftçi" - "Şəmkir", "Kəpəz" - "Qarabağ", "Xəzər Lənkəran" - "İnter", "Neftçi" - "Qəbələ" matçları iki finala təsadüf edib.

# "Liverpul" məğlub oldu

***İngiltərə Premyer Liqasında növbəti oyunlar keçirilib.***

"Unikal" xəbər verir ki, çempionluq mübarizəsi aparan "Liverpul" xal itirib. Mersisayd təmsilçisi Liverpul derbisində "Everton"la qarşılaşıb. Görüş Yurgen Kloppun komandasının 0:2 hesablı məğlubiyyəti ilə bitib.

Günün digər oyunlarında "Bournmut" "Vulverhempton"u 1:0, "Kristal Pelas" "Nyukasl Yunayted"i 2:0, Mançester Yunayted" isə "Şeffild Yunayted"i 4:2 hesabı ilə məğlub edib.

Qeyd edək ki, bu nəticədən sonra "Liverpul" 74 xalla ikinci pillədə qalıb. Turnir cədvəlinə isə 77 xalla "Arsenal" başçılıq edir.

# "Sabah" müntəzəm mövsümü lider kimi bitirdi



***Azərbaycan Basketbol Liqasında müntəzəm mövsümün sonuncu - XVIII turuna start verilib. "Unikal" xəbər verir ki, günün yeganə matçında "Sabah" və "Xəzri" komandaları üz-üzə gəliblər.***

"Sərhədçi" İdman Mərkəzindəki qarşılaşma "Sabah"ın qələbəsi ilə bitib - 77:65.

Qələbə sayəsində xallarının sayını 33-ə çatdıran "Sabah" müntəzəm mövsümü birinci pillədə başa vuracaq. "Xəzri" 31 xalla ikincidir.

Qeyd edək ki, turun digər qarşılaşmaları aprelin 25-28-də gerçəkləşəcək.

# "Ançelotti bizi aldatdı" - Toni Kroos

***Alman yarımmüdafiəçi Toni Kroos "Real"ın baş məşqçisi Karlo Ançelottinin oyunçuları necə motivasiya etdiyini açıqlayıb.***



"Qafqazinfo" xəbər verir ki, futbolçu çalışdırıcının oyunçuları La Liqanı qazanmağa yönəltmək üçün yalan danışdığını deyib.

O, bildirib ki, Karlo Ançelotti "Malyorka" ilə oyundan əvvəl bu sözləri deyib: "Bu oyunda qalib gəlsək, işimizi bitirəcəyik".

Alman futbolçu qeyd edir ki, mütəxəssis əslində yalan danışıb: "Qalib gəlmək çətin olduğu üçün, K. Ançelotti bizə yalan dedi. Oyun bitdikdən sonra bizə bunun yalan olduğunu və motivasiya üçün dediyini açıqladı".